Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# *Dünənimizi sabaha bağlayan "körpü"lər - muzeylər*

**18 May - Beynəlxalq Muzeylər Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı -2017**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul** **Şəhla Qəmbərova**
***Əməkdar Mədəniyyət işçisi***

**“Dünənimizi sabaha bağlayan “körpü”lər - muzeylər”**: metodik vəsait / tərt.ed. A.Əliyeva, S.Əhmədova; red. S.Məlikzadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017. -69 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

18 May - Beynəlxalq Muzeylər Günü Beynəlxalq Muzeylər Şurasının (İCOM) təşəbbüsü və YUNESKO-nun qərarı ilə 1977-ci ildə təsis olunub. Muzeylər Günü, bir qayda olaraq, "Xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək" şüarı ilə keçirilir. Bayramın keçirilməsinin əsas məqsədi cəmiyyətin həyatında muzeylərin nə qədər mühüm rol oynadığını göstərməkdir. Məlumat üçün deyək ki, Beynəlxalq Muzeylər Günü son illər təqribən dünyanın 150 ölkəsində qeyd edilir. Həmin gündə insanlar muzeyləri gəzərək, milli mədəniyyət və tarix haqqındakı məlumatlarını daha da zənginləşdirirlər.

Muzeylərə ancaq qiymətli əşyaların, maddi sərvətlərin saxlanc yeri kimi baxmaq düzgün deyil. Qısaca desək, muzeylər tarixin müəyyən məqamlarını özündə yaşadan, ötən əsrlərin müxtəlif olaylarından xəbər verən eksponatları kompleksləşdirən, qoruyan, saxlayan, öyrənən, nümayiş etdirən maddi-mənəvi mədəniyyət, elm, maarif ocaqları, mərkəzləridir. Burada saxlanılan hər bir eksponat xalqın çoxəsirlik tarixini, qədimliyini və milliliyini əks etdirir.

Azərbaycan özünün dövlət müstəqilliyini qazandıqdan sonra respublikamızda muzeylərimiz xeyli dəyəşib, zənginləşib, onların sayı da artıb. Bu münasibətlə işlədiyimiz vəsaitdə muzeylərin yaranması, inkişafı və dünyanın ən zəngin muzeyləri barədə məlumatlar müxtəlif tədbirlər zamanı kitabxanaçıların və çıxışçıların dilindən verilmişdir.

Əziz uşaqlar, Azərbaycan keçmişi və inkişaf yolu ilə ətrafli tanış olmaq istəyirsinizsə tez-tez muzeylərə baş çəkin.

**Görkəmli şəxsiyyətlərin muzeylər haqqında söylədikləri**

Muzeylərin mənası, əhəmiyyəti Azərbaycan xalqınının tarixini təbliğ və əks etdirməkdən, mədəniyyətimizin səviyyəsini göstərməkdən ibarətdir. Biz öz səviyyəsinə və zamanın tələblərinə həmişə cavab verən istər keçmiş, istərsə də bugünki mədəniyyətimizlə fəxr edirik.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Azərbaycanı xalçasız, xalçanı isə Azərbaycansız təsəvvür etmək mümkün deyil, xalça bizim milli sənətimizdir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Muzeylər özünün tədqiqat və təbliğat funksiyasına görə hər bir xalqın milli-mənəvi sərvətidir.

**Əbilfəz Qarayev,**
*Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri*

Muzey zəhmətkeşlərin, xüsusilə gənclərin vətənpərvərlik, beynəlmiləlçilik tərbiyəsində böyük əhəmiyyət kəsb edən bir mədəniyyət ocağıdır.

**Z.M.Rzayev,**
*elmlər doktoru*

Muzey xalqın tarixində, mədəniyyətində, incəsənətində əsas təbliğat vasitələrindən biridir.

**Nigar Qazızadə,**
*Azərbaycan İstiqlal Muzeyinin elmi katibi*

18 May - Beynəlxalq Muzeylər Günü ilə əlaqədar olaraq kitabxanada bir sıra tədbirlər - kitab sərgisi, kitab müzakirəsi, oxucu konfransı, rəsm və digər müsabiqələr, ədəbi-bədii gecə keçirilə bilər.










Kitab sərgisinə müxtəlif başlıqlar verilir: "Tarixi incilərin ilmələnmiş nağılı - Xalça muzeyi", "Zəngin xəzinəmiz - muzeylər", "Tarixin güzgüsü", "Tarixi yaşadan ünvanlar", "Milli-mənəvi sərvətlər", "Tarixi yaşadan məbədlər", "Keçmişə güzgü tutan məkanlar", "Muzeylərimiz tarix və mədəniyyətimizi təbliğ edir", "Minilliklərin yadigarları", "Minilliklərə boylanan pəncərə", "Dünənimizdən xəbər verən bu günümüz" və s. Bundan başqa, sərgidə dünya və Azərbaycan muzeylərindən müxtəlif fotoşəkillər və görkəmli insanların Beynəlxalq Muzeylər Günü ilə bağlı söylədikləri sitatlar çəklində verilir.

Bayramla bağlı düzənlənən tədbirlərdən biri də tələbələr arasında keçirilən "*Tarixi yaşadan ünvanlar - dünya muzeyləri*" adlı "*dəyirmi masa"*dır. Tədbirdə alimlər, tarixçilər, muzeyşünaslar, folklorşünaslar, müəllimlər, ali məktəb tələbələri və s. qonaqlar da iştirak edir. Əvvəlcə kitabxanaçı

hər kəsi salamladıqdan sonra mövzuya uyğun çıxışa başlayır və dünya muzeyləri haqqında məlumat verir.

***Kitabxanaşı:*** - Bilirsinizmi, muzeylər necə yaranıb? Qədimdə müxtəlif sənədlər, şəhadətnamələr, dəyərli və estetik qiymətə malik əşyalar əsasən saraylarda qorunurdu. İndiki muzeylərin "əcdad"ları e.ə. XVI əsrdə Yunanıstanda, e.ə. XIII-XII əsrlərdə Çində yaranmışdır. Qədim Romada isə maddi və mənəvi mədəniyyət abidələri e.ə. XIII-XII əsrlərdə məbədlərdə və bəzi şəxslərin kolleksiyalarında saxlanılırdı.

Hazırda müxtəlif ölkələrdə yüzlərlə muzey fəaliyyət göstərir. Məsələn, gözəl arxitekturalı saraylarla zəngin olan Madriddə (İspaniya) muzeylərin sayı 100-dən çoxdur. Burada hər dövrü əks etdirən muzeylə rastlaşmaq mümkündür.

***I iştirakçı:*** - Orta əsrlərin ən əzəmətli qalalarından olan Luvr uzun illər Fransa krallarının sarayı olub. Son 200 il ərzində isə o, muzeydir. Binanın üzərində olan naxışlar onun yaşının 800 ildən çox olduğunu göstərir. Luvr sarayı XII əsrin axırlarında Filip Avqust tərəfindən inşa olunub. Dövr getdikcə muzeyin binası öz görkəmini bir qədər dəyişib. Qəsrin indiki görünüşü 1871-ci ildə əldə edilib. Muzeyə verilən ilk rəsmlər I Fransiskonun və XII Lyudovikin yığdığı kolleksiyalardan ibarət olmuşdur. Qalereya 10 avqust 1793-cü ildə açılıb və muzey adlandırılıb. Kolleksiyaların yığılmasına I Napoleon daha çox təşəbbüs göstərib. O, məğlub etdiyi ölkələrdən çoxlu incəsənət əsəri topladaraq Luvra göndərib. Hazırda bu muzeyin 400.000 eksponatı olduğu bildirilir.

Dünyada məşhur muzeylər çoxdur. Məsələn, Vaşiqton Milli İncəsənət Qalereyası, Nyu-York Metropoliten Muzeyi, Venetsiya Akademiya Qalareyası, Drezden Şəkil Dalereyası, Moskva Tretyakov Qalereyası, Sankt-Peterburq Ermitajı və s.

***II iştirakçı:*** - Qonşu Rusiyada ilk muzey 1719-cu ildə Sankt-Peterburqda açılmışdır. Rusiyanın dünya şöhrətli muzeylərindən olan Ermitaj 1764-cü ildə, Tretyakov Qaleriyası isə 1856-cı ildə yaradılmışdır. Sankt-Peterburq şəhərindəki Dövlət Ermitajı (“ermitaj” fransız sözüdür, mənası “tənhalıq”, “tənha yer” deməkdir) dünyanın ən iri muzeylərindən biridir. Ermitajın 350 zalında 3 milyonadək eksponat toplanıb. Muzey 5 binadan ibarətdir: Qış sarayı, Kiçik Ermitaj, Köhnə Ermitaj, Yeni Ermitaj, Ermitaj Teatrı. Bu binalar bir-biri ilə əlaqəli tikilib. İlk vaxtlar eksponantlar Qış sarayının otaqlarında yerləşdirilib.

Öncə qeyd etdiyimiz kimi, Ermitaj muzeyinin fəaliyyətə başlaması tarixi 1764-cü ildən götürülür. Həmin il Sankt-Peterburqa Qərbi Avropa rəssamlarının əsərlərinin böyük kolleksiyası gətirilib. Həmin kolleksiyanı rus çariçası II Yekatirina satın alıb. Ümumiyyətlə, muzeyin eksponatlarla zənginləşməsində II Yekatirinanın rolu böyük olub.

Ermitajda Azərbaycanda metaldan düzəldilmiş plastik sənət nümunələri ilə yanaşı, bir çox orijinal formalı, bəzəkli məişət əşyalarımız da nümayiş etdirilir. Muzeyin zallarında ən qədim dövrlərdən tutmuş XX əsrin əvvəlinədək Azərbaycan ustaları tərəfindən hazırlanmış zərgərlik məmulatları, saxsı qablar, daş, taxta üzərində oyulmuş sənət əsərləri və müxtəlif növlü toxuculuq nümunələri də var. Vaxtilə Qarabağın Xocalı kəndində aparılan qazıntı işləri zamanı tapılmış 3 min illik tarixi olan bu zərgərlik sənəti nümunələri öz orijinal forması ilə tamaşaçıların diqqətini cəlb edir. Təbriz və Şirvanda toxunmuş bənzərsiz Azərbaycan xalçaları muzeyin qiymətləri incilərindən sayılır. Qubanın Pirəbədil, Şamaxının Mərəzə kəndində toxunmuş xalçalarımız rəngi və zəngin bəzək

ünsürləri ilə göz oxşayır. Şamaxı xalçalarının üzərində onun 1881-1885-ci illərdə toxunduğunu bildirən yazı var. Bundan başqa, Ermitajda dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"sinin 1430-cu illərdə üzü köçürülmüş nadir nüsxəsi mühafizə olunur.

***III iştirakçı:*** - Ankara Etnoqrafiya Muzeyi Türkiyə Cümhuriyyətində yaradılan ilk dövlət muzeyidir. Əvvəllər Arxeoloji Muzey kimi istifadə olunması düşünülsə də, sonra Rəsm və Heykəl Muzeyi olması ilə bağlı qərar verilib, rəsmi açılışından sonra isə indiki adını daşımağa başlayıb. Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin nəzdində fəaliyyət göstərən muzeyin maraqlı tarixçəsi var. O, həm muzey, həm də bir müddət Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün nəşinin saxlanıldığı muzey-mavzoley kimi fəaliyyət göstərib. 1925-ci ildə muzeyə eksponatlar toplamaq və satın almaq üçün xüsusi komissiya qurulub. Bundan sonra satın alınan 1250 eksponat 1927-ci ildə inşası tamamlanan binada nümayiş etdirilib. 15 aprel 1928-ci ildə buranı ziyarət edən Mustafa Kamal Atatürk onun muzey kimi fəaliyyətə başlaması barədə göstəriş verib. Beləliklə, Türkiyə Cümhuriyyətinin ilk dövlət muzeyi kimi Ankara Etnoqrafiya Muzeyi xalqın xidmətinə verilib. Dövrünün məşhur memarlarından biri olan Arif Hikmət Koyunoğlunun layihəsi əsasında tikilən Ankara Etnoqrafiya Muzeyi binasının maraqlı quruluşu var. Bina dördbucaqlı olmaqla, təkqübbəlidir. Muzeyin binası önündə at üstündə duran Atatürkün heykəli olduqca əzəmətli görünür. Zalda qoyulmuş video-ekran vasitəsilə muzeyin tarixinə səyahət etmək mümkündür. Muzeydə xüsusilə Anadolu etnoqrafiya və folkloru, sənət tarixi ilə bağlı əsrləri ehtiva edən

kitabxana da var. Muzey Ankaraya gələn turistlərin ən çox üz tutduğu məkanlardan biridir.

***IV iştirakçı***: - Dünyanın ən gənc muzeylərindən olan olan NEMO-nun (Milli Elm və Texnologiya Mərkəzinin) çox maraqlı tarixçəsi var. Muzey 1920-1930-cu illərdə fəaliyyət göstərmiş Əmək Muzeyinin bazasında yaradılmışdır. Muzey 1950-1960-cı illərdə Hollandiya Sənaye və Texnologiya İnstitutu kimi fəaliyyət göstərsə də, 1980-ci illərin sonunda isə bu təhsil ocağına ehtiyac olmadığından o yenidən muzeyə çevrilmişdir. Ancaq bu dəfə onun ərazisi genişləndirilmiş və 6 il davam edən tikinti işlərindən sonra -1997-ci ildə onun açılışı olmuşdur. İlk vaxtlar "Yeni metropol" adlanan muzey maliyyə çatışmazlığı üzündən bağlanmaq təhlükəsi ilə üzləşəndə onun yaradıcıları muzeyin yönümünü dəyişmək qərarına gəlmişlər. Dənizə açılan panoramda gəmiyəbənzər tikilmiş muzey binasında yerləşdirilən eksponatların xüsusiyyətlərini nəzərə alaraq, buranı Milli Elm və Texnologiya Mərkəzi adlandırsalar da, daha sonra muzeyə başqa ad verilməsi zərurəti yaranıb. Muzeyin əsas tamaşaçıları məktəblilərdir. Uşaqların hər şeylə maraqlanmasını əsas götürən muzey əməkdaşları eksponantlara əl ilə toxunmağa icazə verirlər, hətta bunu zəruri hesab edirlər. Maraqlıdır ki, eksponatların demək olar ki, hamısı muzey əməkdaşları tərəfindən, əksər hallarda isə tamaşaçının bilavasitə iştirakı ilə düzəldilir. Onlar bunu belə izah edirlər:
Məqsədimiz hər hansı tullantıdan düzəldilmiş müəyyən əşyanı yox, onun necə düzəldiyini nümayiş etdirməkdir. Ona görə də uşaqlar muzeyə daha çox gəlir və bu prosesdə iştirak etməyə can atırlar. Bu muzeyi müasir incəsənət meydançası kimi də təsəvvür etmək olar. Muzeydə həmçinin teatr, sərgi salonu, mühazirə otağı da var. Burada da iştirakçıların əksəriyyətini

tamaşaçılar təşkil edir. Muzeyə gələnlərin çoxu 6-16 yaşlarında uşaq və yeniyetmələr, onların valideyinləridir. Muzey məktəblilərin dünyagörüşünün artmasında, məktəbdə keçirilən dərslərin əyani şəkildə möhkəmlənməsində böyük rol oynayır. Bu məkanin gözəllikləri və möcüzələri ilə tanış olmaq üçün Amsderdama getmək o qədər də vacib deyil. Muzeyin internet saytına daxil olmaqla (www-e- nemo.n : GAMES bölməsi) çox şey öyrənə və orada keçirilən tədbirlərin iştirakçısı ola bilərsiniz.

18 May - Beynəlxalq Muzeylər Günü münasibəti ilə görüləcək işlərdən biri də muzeylərin təbliğatı məqsədi ilə kitabxana tərəfindən təşkil olunan *ekskursiyalardır.* Ekskursiyanın müddəti on gün ola bilər. Bu müddət ərzində oxucular kitabxana tərəfindən paytaxtımızda yerləşən muzeylərə səyahət edirlər. Bu mövzuya uyğun kitabxanada sərgi keçirilməsi də məqsədə uyğundur. Sərgi "*Keçmişə güzgü tutan məkan*" adlana bilər. Sərgidə bu muzeylə və tarixi sərvətlərimizlə bağlı müxtəlif kitablarla yanaşı, dövri mətbuat nümunələri nümayiş oluna bilər.

İlk ekskursiya Milli Azərbaycan Tarixi Muzeyinə səyahətdir və bu da oxuculara tariximizi, keçmişimizi, milli dəyərlərimizi, incəsənət və mədəniyyətimizi tanıtmaq məqsədi daşıyır. Muzeyin əməkdaşı oxucuları salamladıqdan sonra onlara Milli Azərbaycan Tarixi Muzeyi haqqında məlumat verir.

***Muzeyin əməkdaşı:*** - Azərbaycanda ta qədimdən daş üzərində müxtəlif rəsmlərin çəkilmə ənənəsi Qobustan, Şüvəlan, Kəlbəcər, Gəmiqaya və digər yerlərdən tapılmış qayaüstü təsvirlərdən (petroqiliflərdən) məlumdur. İlk orta əsrlərdə daş üzərində oyma, bəzəkvurma və fiqur həkk

etməklə yanaşı, insanlar daşdan müxtəlif məzmunlu heykəllər də düzəldiblər. Muzeyin ekspoziyasında ən nadir abidələr hesab edilən Şamaxının Xınıslı və Acıdərə-Çıraqlı ərazisindən tapılmış müxtəlif daşlardan yonulmuş, fərqli həcmli qəbirüstü heykəllər (e.ə. I minillik), Qarabağ, Gədəbəy, Lənkəran ərazilərindən 3 minillik tarixi olan nəhəng daş qutu qəbir, Mingəçevir ərazisində arxeoloji qazıntılar zamanı tapılmış IV-VI əsrə aid alban daş kitabəsi nümayiş etdirilir. Burada ən çox maraq doğuran eksponatlar sırasında oğuz türklərinə aid təsvirlər, üzərinə Qurani-Kərim ayəsinin həkk olunduğu sənduqə, XIV əsrə aid üzəri ov və döyüş səhnələrinin təsviri ilə kalliqrafik yazılı qoç fiquru qəbirüstü daş, Şirvan-Abşeron memarlıq məktəbinə aid üzəri nəbati naxışlı sənduqələr və Azərbaycan xalqına aid mərmərdən yonulmuş qəbir baş daşları öz möhtəşəmliyi ilə seçilir.

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi 100 ildən çoxdur ki, yaradılıb. Bu gün siz xalqımızın tarixi keçmişini əks etdirən minlərlə eksponatın qorunub saxlandığı muzeyə gəlmisiniz. Hazırda muzeydə 11 fond fəaliyyət göstərir. Onlardan biri "Qiymətli metallar fondu"dur. Buraya muzeyin digər fondlarında saxlanılan, arxeloji qazıntılar, həmçinin təsadüfü tapıntılar nəticəsində və əhalidən satınalma yolu ilə alınan qiymətli metallardan hazırlanan eksponatlar daxil edilib. Bu fondda 1570 eksponat saxlanır. Onlardan 556 ədəd gümüş, 300-ü qızıl, 714-ü isə numizmatik kolleksiyaya aiddir.

Son dövrlərdə 1712 ədəd yeni material alınıb. Arxeloji qazıntılar zamanı əldə olunan 11 ədəd qızıl muncuq və spiralşəkilli bəzək əşyası muzey eksponatlarının sırasına daxil edilib. 2008-2015-ci illərdə aparılan qazıntılar nəticəsində Tovuz rayonun Menteş qədim yaşayış yerindən tapıldığı

bildirilir. Kurqan qəbirdən əldə olunan bu arxeloji materialların e.ə. VI-IV minilliyə aid olması müəyyən edilib. Qədim zinət əşyaları qadın skletinin üzərində aşkar olunub.

Muzeyin birinci zalında Azərbaycanın kosmosdan çəkilmiş xəritəsi diqqəti cəlb edən eksponatlardandır. Xəritədə ölkəmizin ərazisi, əhalisi, relyefi, flora və faunası faydalı qazıntıları və s. barədə məlumatlar var. Buraya həmçinin böyük monitorda kinofilmlərə də baxmaq olur. Ekspozisiyada nümayiş olunan Daş dövrünə, Paleolit, Neolit, Eneiolit, Tunc və dəmir dövrlərinə aid çaxmaqdaşı, dəvəgözü, əmək alətləri, gil qablar, tunc qılınc və xəncərlər, antik sikkələr, qadın bəzək əşyaları və s. ziyarətçilərin marağına səbəb olur. Muzeyin yeni qurulan ekspozisiyasında Azərbaycan-türk, islam mədəniyyəti nümunələri yer alıb. Zalda qoyulan miniatür nümunələri isə orta əsrlərdə bu sənətin ölkəmizdə necə bir inkişaf dövrü yaşadığını göstərir.

Tarix Muzeyi maddi mədəniyyət nümunəlirimizin qorunduğu məkan olmaqla yanaşı, həm də burada müxtəlif tədbirlər keçirilir, sərgilər təşkil olunur.

Milli Azərbaycan Tarix Muzeyinin fondlarında və əksəriyyəti nadir kitablardan ibarət zəngin kitabxanasında 300 mindən çox nümunə qorunur. Bu kolleksiya ziyarətçi və tədqiqatçılara ölkəmizin ən qədim dövrdən bu günədək tarixini, mədəniyyətini öyrənmək, tariximizlə bağlı istənilən məsələni araşdırmaq imkanı verir. 2005-ci ildən "milli" statusunu almış Azərbaycan Tarix Muzeyi respublikanın çox mühüm elmi-mədəni ocağına çevrilmişdir.

İkinci gün oxucular Azərbaycan Xalça Muzeyinə səyahət edirlər. Rəngarəng ilmələrin, naxışların bu sehirli dünyasını uşaqlara sevdirmək məqsədi ilə kitabxanada "*Tarixi incilərin*

*ilmələnmiş nağılı - Xalça Muzeyi"*adı altında sərgi keçirilə bilər. Sərgidə milli dəyərimiz olan xalçalarımızla bağlı müxtəlif kitablar və eləcə də görkəmli xalça ustası Lətif Kərimov və digər rəssamların kitabları, dövri mətbuatda Xalça Muzeyi və xalça nümunələri ilə bağlı yazılar da təqdim edilə bilər.

Ekskursiya iki hissədən ibarətdir. Azyaşlı oxucular kitabxananın "Nağıl otağı"na dəvət olunurlar. İkinci hissə isə yuxarı sinif şagirdlərinin muzeylə tanışlığıdır. Belə ki, kitabxanada milli dəyərlərimizdən olan xalçalarımızı tanıtmaq, sevdirmək və onlara sahib çıxmaq məqsədilə azyaşlı uşaqlar arasında da bir sıra tədbirlər keçirmək mümkündür. Bunun üçün "Nağıl otağı" müxtəlif dekorasiyalarla, ən əsası da qədim üsullarla toxunmuş xalça və kilimlərlə bəzədilir. Xalçalar xüsusi qurğular vasitəsilə göydən asılı vəziyyətdə olur. Bu da uşaqların maraq dünyasının inkişafına səbəb olur. Nağıla başlamazdan əvvəl kitabxanaçı "Nağıl otağı"na toplaşmış uşaqları salamlayaraq sözə başlayır.

***Kitabxanaçı:*** - Uşaqlar, sirli-sehirli, nağıl dünyasına xoş gəlmisiniz. Bütün nağıllar gözəl və maraqlıdır. Belə nağıllarda "uçan xalçalar" haqqında söhbətlər olduqca maraqlıdır. Nənələr nağıla başlayanda nəvələr də maraq dolu gözlərini nənəyə zilləyib "uçan xalçalar" ın nə vaxt qayıdacaqlarını soruşardılar. Beləliklə, "uçan xalçalar" sözü hər birimizə uşaqlıq illərinin ən əziz, maraqlı, həm də müəmmalı qalan yadigarlarından biridir. Bu xalçaların sirli-sehrli olması Azərbaycan nağıllarında daha çox söylənilir. İndi isə gəlin, hamımız "uçan xalça"ya minək və real dünyamızdan, nağıl dünyasına yol alaq.

***Muzeyin əməkdaşı:*** - Azərbaycan maddi-mədəni irsi və tarixi abidələri ilə də tanınan ölkədir. Dünyada tətbiqi sənətin nadir nümunələrindən olan xalçaçılıq ölkəmizdə qədim tarixə malikdir. Xalçalar gözəl sənət incisidir. Təsadüfü deyil ki, 2010-cu ildə Azərbaycanın ənənəvi xalçaçılıq sənəti YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Qorunması siyahısına salınıb.

Azərbaycan xalçaları yüksək bədii tərtibatı və toxunma texnikası baxımından özünəməxsus keyfiyyətlərə məxsusdur. Həqiqətən də, müxtəlif böyük rəmzi məna daşıyan kompozisiyası, motivlərin orijinallığı və milli koloritliyi ilə seçilən Azərbaycan xalçalarının özü kimi nadir bir muzey binasında saxlanması və qorunması istəyi çox xoş bir niyyətdən və məramdan xəbər verir. Məlumat üçün bildirək ki, ölkəmizin nadir incilərindən olan xalçaların daha geniş və səmərəli nümayişi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, muzey üçün xüsusi bina tikilib. Orijinal üslubda inşa olunan bina bükülmüş xalçanı xatırladır. Hazırda muzeyin sərgi və fondalarında 130 min 300-dən çox eksponat və əşya saxlanılır. Muzeydə xalça və xalça məmulatları, metal məmulatlar, parça, geyim və tikmə, keramika, şüşə, ağac, kağız, zərgərlik əşyaları, kitablar, fotoşəkillərdən ibarət nadir kolleksiya mühafizə olunur. Bu kolleksiyanın ziyarətçilərə təqdimatı üçün binada ideal şərait yaradılıb. Xatırladaq ki, Azərbaycan xalçalarının qorunması və inkişaf etdirilməsi haqda müvafiq qanun da qəbul edilib. Azərbaycan dünyada Qarabağ, Gəncə, Qazax, Quba, Bakı, Şirvan və Təbriz xalçaları ilə məşhurdur. Bu xalçalar əsrlər boyu Azərbaycana şöhrət gətirmişdir. Xalq sənəti əsərləri kimi xalçalarımızda Gəmiqaya, Qobustan, Kür-Araz mədəniyyətindən qaynaqlanan elementlər,

ünsürlər, yüz illər sonra da yaşaya bilmiş və bugünümüzə gəlib çatmışdır. Bu rəmzlər və simvollar Azərbaycanın qədim tarixi haqqında çox şey deyir və təlqin edir. Ona görə də görkəmli alim, professor, rəssam Lətif Kərimovun təşəbbüsü ilə 1960-cı illərin sonlarında Azərbaycan Xalça Muzeyi açılıb. Həmin illərdə ulu öndər Heydər Əliyevin dəstək və təşəbbüsü ilə muzeyin fondlarının zənginləşdirilməsi üçün vəsait ayırıb. Xalça Muzeyi fəaliyyətini müstəqillik illərində Muzey Mərkəzində davam etdirilib.

Xalça Muzeyininn yeni binası xalçanı dəyərləndirən xalqımıza ən böyük töhfədir. Muzeyin "qızıl fondu"nu xovlu xalçalar təşkil edir. Bu xalçalar insanların, heyvanların, quşların üslublaşdırılmış təsviri, bitkilərin ornametləri, xalqın həyatını təsvir edən sujetli motivlərlə zəngindir. Muzeyin kolleksiyası müxtəlif növ xovsuz xalçaların nadir nümunələrini də əks etdirir. Burada palazlar, cecimlər, kilimlər, sumaxlar, həmçinin xalça məmulatları – məfrəşlər, cullar, xurcunlar, corablar toxunma texnikasına və rəngarəngliyinə görə seçilən bir çox eksponatlar təqdim olunur. Muzeyin kolleksiyasında və ekspozisiyasında digər nadir eksponatlar - bədii naxış tikmələri, parçalar və milli geyimlər, həmçinin metal, şüşə məmulatlarından və çini qablardan ibarət əl işləri nümayiş və mühafizə olunur. Bu eksponatlar bürünc dövründən başlayaraq bizim günlərədək olan müddəti əhatə edir. Əsas eksponatlar-xalçalar qövsşəkilli divarlardan asılır. XIX əsrdə Xızıda toxunmuş, məişətdə yer süfrəsi kimi istifadə olunan, zili toxunuşlu xovsuz xalça məmulatı da çox maraqlıdır. Naxçıvanda əldə olunan qədim xovlu, xovsuz xalça məmulatları var ki, onların yan haşiyəsinin naxışları yazılardan ibarətdir. Bu hərflər əsasən ox şəkillidir. Xalq yaradıcılığında

ənənəyə çevrilmiş bu naxışlar əsrlər boyu nəsildən-nəslə ötürülərək mücərrəd bəzək elementinə çevrilmişdir. Təbriz xalçası da öz kompozisiya əlvanlığı, kamil bədii quruluşu ilə fərqlənir. Xalının ara sahəsi dördbucaq formalı damalar, arası şaquli və üfüqi istiqamətli zolaqlar üzərində əski əlifba ilə "talik" hüsnxət üslubundadır və "Ey badi-səba, zülf-ü pərişanıma dəymə" misrası toxunmuşdur. Bu sətirlər xalça boyu dəfələrlə təkrarlanır. Daha bir sujetli xalça Cənubi Azərbaycan milli azadlıq hərakatının başçısı Səttarxana həsr olunub. Xalçanın baş tərəfində medalyonun içərisində "Səttarxan sərdare-milli" sözləri toxunub. Xalçanın digər bir surəti Azərbaycan Xalça Muzeyində muhafizə olunur. Bu xalça hicri təqvimi ilə 1326-cı ildə (1908) toxunub. Üzərində Səttarxanın silahdaşlarının da obrazları yaradılıb. 1916-cı ildə Qarabağda toxunan orijinal ü sluba malik xalça da maraq doğurur. Bütün sənət nümunələrində, növlərində dəst-xət deyilən anlam var. Xalça sənəti də istisna deyil. Xalçalar, onlardakı naxışlar da uzaq-yaxın keçmişimizdən süzülüb gələb nişan, damğa olmaqla yanaşı, tariximizin yaddaşıdır. Xalçalar zaman-zaman öz dəyərini qat-qat artıraraq evin, ailənin ən qiymətli əşyalarından sayılıb. Bir sözlə, haqlı olaraq fəxr edirik ki, xalçaçılıq sənətimiz bu gün də yaşayır və yaşayacaqdır. Hesab edirəm ki, mədəniyyətimizi, sənətimizi dünyaya təqdim etmək üçün xalça xüsusi yerə malikdir. Təəssüf ki, bu gün maddi-mənəvi sərvətlərimizin xeyli hissəsi özümüzün deyil, məhz dünyanın müxtəlif muzey və sərgi salonlarını bəzəyir. Çünki Azərbaycanın maddi-mənəvi sərvətləri zaman-zaman xarici ölkələrə daşınıb. Məsələn, dünyanın ən böyük və qədim xalçası XVI əsrdə toxunmuş "Şeyx Səfi" sayılır. Bu nadir sənət incisi orta əsr Azərbaycan xalçaçılığının şah əsəri hesab olunur.

Həmin xalça Londonun Viktoriya və Albert muzeyində saxlanılır. Xalının uzunluğu 10,51 metr, eni 5,34 metr, ümumi sahəsi 56,2 kvadratmetrdir. Kitabxanaçının oxucularla birgə səyahət etdiyi muzeylərdən biri də R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyidir. Səyahət "İncə sənətlər məkanı- İncəsənət Muzeyi" adlanır. Bura respublikamızın əsas muzeylərindən biri, ölkəmizdə dünya və Azərbaycan incəsənəti muzeylərinin toplandığı əsas mədəniyyət müəssisəsidir. Kitabxanaçı oxuculara muzey haqqında məlumat verir.

***Kitabxanaçı:*** -İncəsənət Muzeyi 1937-ci ildə, keçmiş Azərbaycan Dövlət Muzeyinin incəsənət şöbəsi əsasında yaradılmışdır. Ötən illər ərzində muzeyin ekspozisiya fondu xeyli genişlənmiş, zənginləşmişdir. İncəsənət muzeyinin binası klassik quruluşu, təmtəraqlı zahiri görkəmi, estetikliyi ilə klassik incəsənət əsərlərinin nümayiş etdirdiyi muzeylər tipinə tam uyğun gəlir. İncəsənət Muzeyində təsviri və dekorativ-tətbiqi sənət əsərləri ilə yanaşı, arxeloji materiallar da saxlanılır. Bunlardan üzəri əski əlifba ilə yazılı qəbirqstü daşlar, müxtəlif ornamentli sənduqələr, kitabələr daha çox maraq doğurur. Arxeloji materiallar həm də etnoqrafik səciyyə daşıyır. Muzeydə dekorativ-tətbiqi sənət əsərlərinin əksəriyyətini Azərbaycanla bağlı materiallar təşkil edir. Burada ayrı-ayrı xalça məktəblərini təmsil edən xalçalar, müxtəlif bədii toxuculuq məmulatları, saxsı qablar, milli geyim nümunələri, zərgərlik əşyaları toplanmışdır. Onların bədii və tarixi dəyəri böyükdür. Əlbəttə, muzeydə təsviri sənət daha geniş təmsil olunmuşdur. Burada qiymətli rəngkarlıq, heykəltəraşlıq və qrafika əsərləri toplanmışdır. Eksponatlar əsasən dörd qrupa bölünür ki, buraya da Azərbaycan, rus, Qərbi Avropa və Şərq

incəsənəti nümunələri daxildir. Azərbaycan incəsənəti nümayiş olunan ekspozisiyalar muzeydə geniş sahə tutur. Burada realist incəsənətin klassiklərindən tutmuş son dövrlərin tanınmış rəssamlarına qədər müxtəlif nəsillərə mənsub sənətkarların əsərləri mühafizə edilir. Muzeydə Şərq incəsənəti daha çox dekorativ sənət nümunələri, vazalar, dekorativ nimçələr, çini qablarla təmsil olunmuşdur. Digər əsaslı muzeylər kimi, İncəsənət Muzeyində də geniş elmi iş aparılır. Müxtəlif dövrlərdə muzey kataloqlar, buketlər nəşr etdirmişdir. Muzeyin bərpa emalatxanası da vardır. 2013-cü ilin 7 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan Dövlət İncəsənət Muzeyinin yeni keçid korpusunun açılışı mərasimi keçirilmişdir. Yeni korpus Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə inşa olunmuşdur.

Dördüncü gün oxucular kitabxanaçının rəhbərliyi ilə Mülki Aviasiya Muzeyinə ziyarət edirlər. Ziyarət *"Dəmir quşlar qəfəsdə"* başlığı altındadır. Muzey işçisi oxucuları salamladıqdan sonra Mülki Aviasiya Muzeyi haqqında məlumat verir.

***Muzeyin əməkdaşı:*** - Dünyada muzeylər o qədər çoxdur ki, hətta beynəlxalıq muzey təşkilatları da onların dəqiq sayını müəyyən etməkdə çətinlik çəkirlər. Lakin bu sıxlıq cərgəsində elə muzeylər də vardır ki, onlar barmaqla sayıla biləcək dərəcədə azdır. Aviasiya muzeyləri belələrindəndir. "Aviasiya" anlamı latınca "quş" mənası verən "avis" sözündən yaranmışdır. Fransadakı Le Burje muzeyi həm yaşına, həm də eksponatlarının qədimiliyinə görə ən qocaman aviasya muzeyi hesab olunur. Yaranma tarixi 1879-cu ilə aid olan "Massia-Biot" planeri muzeyin qədim eksponatları arasında xüsusi yer

tutur. Le Burje Aviasiya Muzeyi Paris şəhəri yaxınlığındakı keçmiş aerovağzal kompleksində yerləşir. Amerika Birləşmiş Ştatlarının Arizona ştatında Hərbi-Hava Qüvvələrinə məxsus olan "Bone Yard" dünyanın ən nəhəng aviasiya muzeyi sayılır. Burada müxtəlif ölkələrdə istehsal olunmuş, aviasiya əsrinin ayrı-ayrı mərhələlərində istifadə edilmiş uçan aparatların nümunələri nümayiş etdirilir. Muzeydə bir sıra nadir eksponatlar, o cümlədən Birinci və İkinci Dünya müharibələrində istifadə olunan təyyarələrin nümunələri diqqəti çəkir. Dünyada örtülü şəraitdə, başqa sözlə, tavan altında fəaliyyət göstərən aviasiya muzeyləri çox deyil. Belə muzeylərin xüsusiyyəti ondan ibarətdir ki, ekspozisiyada aviasiyanın texniki potensialına deyil, tarixinə dair eksponatlara üstünlük verilir.

Azərbaycanda yaradılmış Mülki Aviasiya Muzeyi də bu qəbildəndir. Onun ön bölmədə yerləşdirilmiş ekspozisiyası Azərbaycanda aviasiyanın yaranmasından və inkişaf mərhələsindən bəhs edir. Bu muzey struktur cəhətdən Sankt-Peterburq Mülki Aviasiya Muzeyinə bənzəyir. Həmin muzey də örtülü məkanda (bəzi bölmələri istisna olmaqla) fəaliyyət göstərir, əsasən Rusiya aviasiyasının tarixini əks etdirir. Sankt-Peterburq Mülki Aviasiya Muzeyi Aviasiya Akademiyası ilə "Pulkovo" aviamüəssisəsinin bazasında yaradılmışdır. Başlıca missiyası akademiyanın müdavimlərinə xidmət göstərməkdir. Bizim muzey isə "Azal"-ın və Azərbaycan Milli Aviasiya Akademiyasının törəməsidir. Təməli 2005-ci ildə qoyulub, 2008-ci ildə istifadəyə verilib. Hazırda fond ehtiyatı 7,5 mini ötən Mülki Aiasiya Muzeyi tələbə-tədris ocağına çevrilmişdir.

Kitabxanaçının rəhbərliyi altında oxucuların beşinci ziyarət etdiyi muzey **İstiqlal Muzeyi**dir. ***"Qürur qapısı -***

***İstiqlal Muzeyi"*** adlanan bu ziyarət uşaqlar tərəfindən sevinclə qarşılanır. Maraqlı tarixçəsi və özəllikləri olan Azərbaycan İstiqlal Muzeyi 20 ildən çoxdur ki, fəaliyyət göstərir. Muzeyin yaranması və fəaliyyəti ilə əlaqədar kitabxanaçı məlumat verməyə başlayır.

***Kitabxanaçı:*** - Əslində bu muzeyin tarixi 1919-cu ilə gedib çıxır. Çünki Azərbaycanın ilk dövlət muzeyi məhz İstiqlal Muzeyi olub. 1919-cu il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin qurulmasının birinci ildönümü münasibətilə elə parlamentin binasında təşkil olunan İstiqlal Muzeyi cəmisi bir neçə ay fəaliyyət göstərmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra muzey bağlanmış, öz fəaliyyətini 71 il sonra bərpa etmişdir. Beləliklə, 1991-ci il yanvarın 9-da İstiqlal Muzeyi yaradılmışdır. 20 il əvvəl 7 minədək eksponatla fəaliyyətə başlayan muzeydə hazırda 20 minə yaxın ekponat var. Muzey 6 zaldan ibarətdir. Birinci zalda Azərbaycanın dövlət rəmzləri - ölkəmizin üçrəngli bayrağı, Dövlət gerbi, Dövlət himni və Dövlət Konstitusiyasınını əks etdirən sənədlər nümayiş olunur. Bu zalda XVIII əsrin ikinci yarısında Azərbaycanın xanlıqlara bölünməsinə, Vətənimizin işğalı uğrunda Rusiya ilə İran arasında gedən müharibələrə (1804-1828), Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinin bağlanmasına dair materiallar da yer alıb. Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində ölkəmizin ərazisinin 20 faizindən çoxu zəbt olunub. Həmin ərazilərdə digər mədəniyyət müəssisələri ilə yanaşı, 22 muzey də qalıb və onların zəngin eksponatları qarət olunub. Bu muzeylərdən yalnız Cəbrayıl və Füzuli rayonlarındakı tarix-diyarşünaslıq muzeylərinin xilas olunmuş eksponatları bizim muzeydə nümayiş olunur. İkinci zal XIX

əsrin ikinci yarısından XX əsrin əvvəlinədək olan dövrü əhatə edir. Bu dövr Azərbaycan üçün tarixi baxımdan qısa, lakin mahiyyətinə görə çox zəngin dövr olub. Bu, mədəniyyət və elmin, neft sənayesinin inkişafı, H. Z.Tağıyev, M.Nağıyev, M. Muxtarov kimi neft milyonçuları tərəfindən yeni binaların, məktəblərin, teatrların, xəstəxanaların tikildiyi dövrdür. Həmin dövrü əks etdirən materiallar bu zalda əks olunub. Burada həmçinin A.A. Bakıxanovun, milli mətbuatımızın əsasını qoyan H. B. Zərdabinin və digər ədib və ziyalıların fəaliyyətini əks etdirən materiallar toplanıb. Zalın digər bölməsində 1918-ci il 31 mart soyqırımına həsr olunmuş fotofaktlar, arxiv materialları, sənədlər nümayiş etdirilir. Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərlərindən olan M.Ə. Rəsulzadə, F.X. Xoyski, Ə. B. Topçubaşov və digər görkəmli şəxsiyyətlərin fotoları, o zamanın pul vahidləri, poçt markaları, həmin dövrün müxtəlif hadisələrini əks etdirən materiallar yer alıb.Tarixdən bəllidir ki, 1828-ci ildə Türkmənçay müqaviləsinin bağlanması ilə Azərbaycan 2 hissəyə bölünüb: Şimali Azərbaycan çar Rusiyasına, Cənubi Azərbaycan isə İrana birləşdirilib. Muzeyin üçüncü zalı bu tarixi hadisələrə həsr olunub.

Dördüncü ekspozisiya zalı iki hisssədən ibarətdir. Birinci hissəsində ötən əsrin 20-30-cu illərində Azərbaycanda repressiyaya məruz qalan görkəmli şəxsiyyətlər haqqında məlumat verilir. Zalın digər bölməsi isə II Dünya müharibəsi zamanı (1939-1945) ölkəmizin qəhrəman oğul və qızlarının ön və arxa cəbhədə göstərdiyi şücaətləri əks etdirir.

Beşinci zal Qarabağ müharibəsinə həsr olunub. 1988-ci ildən başlayaraq Ermənistanın ölkəmizə qarşı işğalçılıq müharibəsi nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun

ətrafındakı Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları zəbt olunub. Bu dövrdə Ermənistan ərazisindəki tarixi yurddaşlarımızdan, habelə Dağlıq Qarabağ və ətraf bölgələrdən 1 milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bu mövzuya muzeydə böyük yer ayrılıb. Burada 1990-cı ilin 20 Yanvar hadisələrini, Xocalı faciəsinin dəhşətlərini əks etdirən fotolar, müxtəlif sənədli materallar da nümayiş etdirilir.

1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyev xalqın tələbi ilə Bakıya dəvət edilib və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil olub. Bu tarixdən başlayaraq ölkəmizin keçirdiyi inkişaf yolu haqqında məlumatı muzeyin ziyarətçilərinə 6-cı zalda geniş məlumat verilir. Muzeyin fəaliyyəti bunlarla məhdudlaşmır. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, Azərbaycan dövlətçiliyinin təbliği, tariximizin şanlı səhifələrini daha dərindən öyrənmək məqsədilə muzeydə Azərbaycanın tarixinin müxtəlif hadisələrinə həsr olunmuş tədbirlər, sərgilər keçirilir.

Beşinci gün oxucular kitabxanaçının rəhbərliyi ilə N.Gəncəvi adına Azərbaycan Ədəbiyyat Muzeyini ziyarət edirlər. Ziyarət *“Söz məbədinə səyahət*” başlığı altında keçirilir. Kitabxanaçı bu haqda oxuculara məlumat verir.

***Kitabxanaçı:*** - Muzeylər hər bir xalqın maddi-mənəvi xəzinəsidir. Unudulub, yaddan çıxan tariximizin özümüzə qaytarılmasında muzeylərimizin xidmətləri əvəzsizdir. Çünki muzeylər tarixin müəyyən dövrlərində yaşayan insanların həyat tərzi, məşğul olduğu qiymətli sənət əşyalarını qoruyub saxlayan müəssisədir. Muzeylər gənc nəslə çox şey öyrədir və tarixi onlara çatdırır. Ədəbiyyat təmayyülü olaraq, bütöv ədəbiyyatın bir neçə yüzillik tarixini əks etdirməsi baxımından

muzey yalnız Yaxın və Orta Şərqdə, Avropada nadir mədəniyyət ocağıdır. Nizami Gəncəvinin 800 illik yubileyi münasdibəti ilə onun həyat və yaradıcılığının əks etdirilməsi məqsədi ilə yaradılmış muzey 1940-ci il mayın 14-də açılmışdır. İllər ötdükcə muzey ən qədim zamanlardan müasir dövrə qədər Azərbaycan ədəbiyyatını əks etdirən mədəniyyət ocağına çevrilmişdir. Prezident İlham Əliyevin bilavasitə diqqət və qayğısı nəticəsində muzeydə dünya səviyyəsində təmir və yenidənqurma işlərinin aparılması, onun fəaliyyətinin genişləndirilməsi bu sənət ocağının həyatında yeni mərhələnin başlanmasına səbəb olmuşdur. Təsadüfü deyil ki, son 5 il ərzində muzeydə nəşr edilmiş elmi əsərlər, müxtəlif məcmuələr, konfrans materialları onun bütün tarixi boyu nəşr edilən materallarından çoxdur. Ekspozisiyada zalların sayı 19-dan 40-a, eksponatların sayı 2 mindən 30 minədək artırılmış, rəsm əsərləri, heykəltaraşlıq nümunələri tamamilə yenidən bərpa edilmiş, zəruri avadanlıq alınmışdır.

*Kitabxanaçı ziyarətçiləri N.Gəncəvi adına Azərbaycan Ədəbiyyat Muzeyi barədə məlumatlandırdan sonra onlara N.Gəncəvi adına Azərbaycan Tarix-Diyarşünaslıq Muzeyi haqqında da danışır.*

Tarix-Diyarşünaslıq Muzeyi 1975-ci ildən Gəncənin sonuncu xanı Cavad xanın nəticəsi İsmayıl və Adil xan Ziyadxanovların şəxsi evlərinə köçürülüb. O zaman muzey iki şöbədən ibarət olub və burada ilk vaxtlar 500-ə yaxın eksponat saxlanılıb. Hazırda isə muzeydə müxtəlif dövrləri əks etdirən 30 mindən artıq eksponat qorunur. Bunlardan ən qədimi daş dövrünə aiddir. Ümumiyyətlə, daş dövründən başlayaraq müasir dövrümüzə qədər tarixi, məişət, əl işləri, qədim musiqi alətləri XII əsrdə yaşayan şairlərin həyat və yaradıcılığına aid

müxtəlif fotolar və eksponatlar qorunur. Vətəndaşların diqqətini çəkən eksponat isə Gəncənin zəlzələdən qabaqkı dövrü əks etdirən maketidir. Onu da deyək ki, muzeyin fondu elmi işçilər tərəfindən daim zənginləşdirilir. Muzeydə 18 eksponat zalı var ki, bunun da 10-u müasir, 8-i isə qədim dövrə aiddir. Həmçinin burada saxlanılan eksponatların 50 faizdən çoxu Gəncəbasarın tarixini, mədəniyyətini və məişətini əks etdirir. Kitabxanaçının oxucularla birgə növbəti səyahət etdiyi məkan Miniatür Kitab Muzeyidir. Səyahət "*Nadir xəzinə*" adı altında keçirilir. Oxucular muzeyin qeyri-adi gözəlliyi və möhtəşəmliyi qarşısında sevinclərini gizlətmirlər. Kitabxanaçı muzey haqqında bəzi məqamları qeyd edir.

***Kitabxanaçı:*** - Kitablar bəşəriyyətin müdriklik və mənəviyyat toplusunu təcəssüm etdirir. Bu muzeyin sərgi qalareyasından nəyi yaxşıdır? Sərgi yalnız bir neçə günlüyə keçirilir. Buraya isə bir neçə saat keçirmək və yenidən qayıtmaq istəyi ilə gələ bilərsən. Nizami, Puşkin və Petrarka, Şekspir və Juli Vern, Visotski və və Lafonten, Səməd Vurğun və Dante, Lermantov, Kiplinq sizi amiranə tərzdə geri çağıracaq...

Bu nadir kitabları gözəl ziyalımız Zərifə Salahova təxminən 25 ilə toplayıb. O, Miniatür Kitab Muzeyinin təsisçisi və yaradıcısıdır. Mütəxəssislər iddia edirlər ki, dünyada bu muzeyin analoqu yoxdur. Qədim müdriklər ilk əlyazma kitablarını cənnətin açarları adlandırıblar. Bakı muzeyində belə miniatür "açar"ların sayı artıq beş mini keçib.

*Kitabxanaçının oxucularla birgə növbəti səyahəti Azərbaycanın qədim şəhəri Şabranadır. Səyahət "Əfsanələr paytaxtı - Şabran" adı altında keçirilir. Səyahətçilər muzey və abidələrlə tanış olduqdan sonra kitabxanaçı onlara bu haqda məlumat verir.*

***Kitabxanaçı:*** - Zəngin tarixə malik Şabran Azərbaycanın siyasi və mədəni həyatında mühüm iz qoymuş qədim şəhərlərimizdəndir. Tədqiqatçılar yazılı tarixi mənbələrə və şəhərin müxtəlif hissələrində aparılan arxeloji qazıntıların nəticələrinə əsaslanaraq burada hələ eramızdan əvvəl yaşayış məskəni olduğunu müəyyən ediblər. İndi bu torpaqda yeni şəhər, yeni Şabran inkişaf edir. Şabran rayonunda 150-dək tarixi abidə var. Qədim şəhərin xarabalıqları arasında tariximizin bir çox səhifələrinə işıq salmaq, onları öyrənib üzə çıxarmaq, həm də mədəni irsimizin bir sıra maraqlı məqamlarını öyrənmək baxımından rayonda yaradılan Tarix-Diyarşünaslıq Muzeyi mühüm əhəmiyyətə malikdir. Bu muzeydə qədim Şabranın tarixini əks etdirən və turistlər üçün də maraq kəsb edəcək çoxlu sayda eksponat var. Ümumilikdə Şabran rayonundakı abidələrdən ən möhtəşəmləri isə qədim “Şabran” və “Çıraqqala” abidələridir. Muzeydə bu abidələr haqqında da geniş məlumatlar əks olunub. Şabran şəhəri Azərbaycanın “Əfsanələr paytaxtı” elan olunub. Muzeydə rayonun tanınmış ziyalıları və 1941-1945-ci illər Böyük Vətən müharibəsində Şabrandan olan qəhrəmanların haqqında məlumatlar da yerləşdirilib. Rayon şəhidləri üçün isə ayrıca guşə yaradılıb. Muzeydə Şabranın tarixini, mədəniyyətini əks etdirən 3572 eksponat nümayiş etdirilir. Eksponatların bir çoxu şəhərdə aparılmış arxeloji qazıntılar zamanı tapılıb. Muzeydə rayonda toxunan xalçalardan da nümunələr var. Şabranın ilkin orta əsrlərə aid maketi və ticarət əlaqələrini əks etdirən sxem də xüsusi maraq doğurur. Bundan əlavə, IX-X və XVI-XVII əsrlərə aid saxsı qablar, mis pullar, məzar daşları vardır.

Muzeyləri gənc nəslə  tanıtmaq, sevdirmək, milli dəyərlərimizi, tariximizi onlara daha əyani şəkildə göstərmək üçün kitabxanada  bir sıra tədbirlər həyata keçirilməkdədir. Bu tədbirlərdən biri də ***oxucularla söhbət*** adlanır. Tədbir *"Əməli, qələmi ilə tariximizə iz qoyan şəxsiyyətlər"* başlığı altında ədiblərin ev muzeylərindən bəhs edir. Bunun üçün ilk olaraq kitabxanada ədiblərin ev muzeyindən bəhs edən sərgi təşkil olunur. Sərgidə respublikamızda, o cümlədən paytaxtımızda olan muzeylərimizdən ibarət kitab, dövri mətbuatdan yazı nümunələri və görkəmli şəxsiyyətlərin muzeylər haqqında söylədikləri kəlamlar yer alır. Tədbir tələbələr  və yuxarı sinif şagirdləri arasınd sərgi ətrafında söhbət  şəklində keçirilir. Kitabxanaçı gələn qonaqları və iştirakçıları salamladıqdan sonra muzeylər və onların xidmətləri, yaranma tarixi və s. barədə  məlumat verir.

***Kitabxanaçı:*** - Abidələr və tarixi şəxsiyyətlər təkcə tarixin yaddaşı və yadigarları deyil, eyni zamanda, maddi-mədəniyyət nümunələridir. Ona görə də onların qorunması və gələcək nəsillərə çatdırılması olduqca vacib məsələlərdən biridir. 18 May- Beynəlxalq Muzeylər Günü Azərbaycanda da geniş tədbirlərlə qeyd olunur. Respublikamızda muzey işi maraqlı inkişaf yolu keçib. İlk dövlət muzeyi 1919-cu ildə Bakıda (İstiqlal muzeyi), ilk memorial muzey isə 1940-cı ildə Şəkidə (M.F.Axundovun ev-muzeyi) fəaliyyətə başlayıb. Hazırda Azərbaycanda 250-dən çox  muzey fəaliyyət göstərir. Onların 205-i Mədəniyyət və Turizm Nazirliyinə aiddir. Bunların 13-ü incəsənət, 7-si ədəbiyyat, 13-ü tarix, 68-i tarix-diyarşünaslıq, 6-sı döyüş şöhrəti və 44-ü ev-muzeyləridir. Böyük öndər H.Əliyevin həyat və fəaliyyətini işıqlandıran  və təbliğ edən 54 muzey fəaliyyət göstərir. Eyni zamanda, Milli Elmlər

Akademiyası sistemində, nazirlik və təşkilatların nəzdində müxtəlif profilli və şəxsi muzeylər də var. Azərbaycanda qoruq muzeylər də fəaliyyət göstərir. Belə muzeylərə açıq havada olan xüsusi memarlıq üslubuna malik qeyri-adi tikililər, abidələr, bulaqlar, məqbərələr, məbədlər daxildir. Bu muzeylərin sırasında Şəki Xan Sarayı, "Qobustan" Dövlət Tarixi-Bədii Qoruğu, Şirvanşahlar Kompleksi, Möminəxatun türbəsi və başqa abidələri misal çəkmək olar. Hazırda Bakıda 13 ev, xatirə muzeyləri fəaliyyət göstərir.

*Kitabxanaçının çıxışından sonra iştirakçılar söz alırlar.*

***I iştirakçı:*** - Respublikamızın muzey şəbəkəsində görkəmli şəxsiyyətlərin xatirə muzeyləri mühüm yer tutur. Xatirə muzeylərinin yaradılmasına xüsusi dövlət qayğısı 1970-1980-cı illərdə, daha sonra isə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonrakı dövrə təsadüf edir. Bakıda Uzeyir Hacıbəylinin, Cəfər Cabbarlının, Səməd Vurğunun, Hüseyin Cavidin, Bülbülün, Cəlil Məmmədquluzadənin, L. və M. Rostropoviçlərin, Nəriman Nərimanovun, Abdulla Şaiqin, Naxçıvan Muxtar Respublikasında Cəlil Məmmədquluzadənin, Hüseyin Cavidin, Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin, Şamaxıda Mirzə Ələkbər Sabirin, Lənkəranda Həzi Aslanovun, Şəkidə Mirzə Fətəli Axundovun, Rəşid bəy Əfəndiyevin, Sabit Rəhmanın, Xızıda Cəfər Cabbarlının, Gəncədə Mir Cəlal Paşayevin, Göyçayda Rəsul Rzanın, Ağstafada Hüseyin Arifin, Ağdaşda Maqsud Şeyxzadənin xatirə muzeyləri həmin şəxsiyyətlərin həyatı və fəailiyyəti ilə bağlı materialların toplandığı, qorunduğu, öyrənildiyi və təbliğ olunduğu mədəniyyət müəssisələri, eyni zamanda bu şəxsiyyətlərin xatirəsini əbdiləşdirən yerlərdir. Təəssüflə qeyd olunmalıdır ki, Ermənistanın respublikamıza

hərbi təcavüzü nəticəsində bu cür mədəni-maarif ocaqlarımızdan bəziləri işğal olunan torpaqlarlarda qalıb. Şuşada  Uzeyir Hacıbəylinin, Bülbülün və Mir Möhsün Nəvvabın, Ağdamın Gülablı kəndində Qurban Primovun, Laçının Güləbird kəndində Sarı Aşığın xatirə muzeyləri bu təcavüzün qurbanı olub. Xatirə muzeyi (memorial muzey, ev-muzeyi, mənzil-muzey də adlandırılır) adətən şəxsin doğulduğu, bütün ömrü boyu və ya həyatının müəyyən illərinin yaşadığı, yaxud həmin şəxslə bağlılığı olan yerdə (evdə, mənzildə, iş otağında və s.) yaradılır. Mühüm tarixi hadisələrlə bağlı yerlərdə yaradılan  muzeylər xatirə kompleksləri adlandırılır. Xatirə muzeyinin profili həmin şəxsin fəaliyyət sahəsinə uyğun müəyyən edilir. Respublikamızın xatirə muzeyləri sırasında  şair və yazıçılara həsr olunmuş ədəbi xatirə muzeyləri çoxluq təşkil edir. Belə muzeylər kompleksinə yazıçının yaşamış olduğu ev, mənzil, malikanə, onun şəxsi əşyaları, müxtəlif sənədləri, əlyazmaları, sağlığında nəşr olunmuş kitabları, yaxud yaradıcılığına həsr olunmuş tədqiqat işləri və s. daxildir. Xatirə muzeyi yaradılarkən həmin şəxsiyyətin yaşadığı şəraitin bərpa olunmasına əməl edilməsi xüsusi tələb kimi qarşıya qoyulur. Məsələn, şəxsiyyətin iş və yataq otaqları, qonaq otağı, onun sağlığında olduğu vəziyyətə gətirməlidir. Bu otaqlarada (bunlar xatirə otaqları adlandırılır) həmin dövrü xatırlatmalıdır. Xatirə muzeyinin əşyaları da təbii ki, həmin şəxsiyyətin həyatı və fəaliyyəti ilə bağlı olur. Buraya ilk növbədə muzeyin yaradıldığı yer (ev, mənzil, malikanə, iş otağı və s.) daxildir. Təcrübə göstərir ki, yaşadığı müddətdən asılı olmayaraq, həmin yerdə xatirə muzeyi yaradılır və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır. Buraya gələn

tamaşaçıda xoş hisslər, duyğular yaranır, şəxsiyyətin xatirəsi ehtiramla yad edilir.

Respublikamızda ilk xatirə muzeyi böyük Azərbaycan yazıçısı və filosofu M.F.Axundovun ev-muzeyi (Şəki) 1940-cı illərdə yaradılıb. Yazıçı burada uşaqlıq illərinin bir hissəsini və ilk gənclik illərini keçirib. Muzey iki kiçik otaqdan ibarətdir. Məlumdur ki, M.F.Axundov ömrünün əsas hissəsini Tiflis şəhərində yaşayıb və işləyib. Bu gün böyük yazıçının bir vaxtlar Tiflis şəhərində işləyərkən yaşadığı evdə onun xatirə muzeyi fəaliyyət göstərir. M.F.Axundovun ev-muzeyi adlanan bu mədəniyyət ocağı Gürcüstanda yaşayan soydaşlarımızın tez-tez toplaşdıqları yerdir. Gürcüstan Azərbaycanlılarının Mədəniyyət Mərkəzi burada yerləşir. Cəfər Cabbarlının Bakıda və Xızıda, Cəlil Məmmədquluzadənin Nehrəmdəki (Babək rayonu) xatirə muzeylərinin tarixi maraq doğurur.

***I iştirakçı:*** - Hər bir xalq onun tarixində müstəsna rolu olmuş dahi şəxsiyyətlərin xatirəsini həmişə uca tutaraq onlara həsr edilmiş fondlar, müxtəlif xatirə kompleksləri, muzeylər, mərkəzlər yaradır. Bu insanların həyatı və fəaliyyəti ilə bağlı nə varsa mənəvi dəyərlər kimi qorunub saxlanılır və böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işində istifadə olunur. Xalqımızın taleyində mühüm rol oynayan belə şəxsiyyətlərdən biri də məhz Heydər Əliyevdir. Heydər Əliyev Fondu bu gün respublikamızda fəaliyyət göstərən Heydər Əliyev Muzey və mərkəzləri üçün işin düzgün qurulmasında bir nümunədir. Fond tərəfindən göstərilən qayğının nəticəsidir ki, son illər Bakıda, həmçinin respublikamızın şəhər və rayonlarında 50-dən çox Heydər Əliyev Muzeyi və Mərkəzi yaradılmışdır.

Heydər Əliyev Mərkəzinin binası Bakı şəhərində, Heydər Əliyev prospektində inşa edilmişdir. Mərkəz böyük bir kompleksdən ibarət olmaqla, özündə iri konqres zalı, Heydər Əliyev Muzeyi, sərgi salonları, adminstrativ ofisləri birləşdirir. Mərkəzin layihəsi 2007-ci ildə məşhur memar Zaha Hadid tərəfindən işlənmişdir. Mərkəz müasir Bakının simvollarından biri hesab edilir. Mərkəzin əsas binası üç böyük hissədən ibarətdir: Heydər Əliyev Muzeyi, sərgi zalları və "Auditorium". Binanın doqquz mərtəbəli hissəsində sərgi zalları, ofislər, həmçinin kafelər yerləşir.

Mərkəzin birinci mərtəbəsində "Azərbaycan inciləri" adlı sərgi fəaliyyət göstərir. Sərgidə ölkənin tarixi və mədəni irsini əks etdirən unikal eksponatlar nümayiş etdirilir. Sərgidə Azərbaycan tarixinin bütün dövrlərini, həmçinin mədəniyyətinin müxtəlif sahələrini özündə əks etdirən eksponatlar vardır. Eksponatlar arasında həmçinin müxtəlif regionlara məxsus Azərbaycan milli geyim nümunələri və müxtəlif məktəblərə xas Azərbaycan xalçaları da vardır. Burada həm də qədim Azərbaycan musiqi alətləri də sərgilənir ki, ziyarətçilər onlara yaxınlaşmaqla, həm də alətlərin səslənməsini dinləyə bilirlər.

Mərkəzin ən cəlbedici hissələrindən birində Heydər Əliyev Muzeyi fəaliyyət göstərir. Dizaynı və burada tətbiq olunan yeni texnologiyaları ilə fərqlənən muzey Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirir. Burada Heydər Əliyevin həm Sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərindəki fəaliyyətinin müxtəlif aspektləri virtual formada təqdim edilir. Heydər Əliyev haqqında çəkilən filmləri izləmək istəyənlər üçün müasir avadanlıqlarla təchiz edilmiş xüsusi zal fəaliyyət göstərir. Muzeydə təqdim olunan

Heydər Əliyevin hərbi və mülki geyimləri, iş masası, şəxsi əşyaları, müxtəlif illərdə layiq görüldüyü orden və medallar, dünya ölkələrinin rəhbərləri tərəfindən aldığı hədiyyələr də nümayiş etdirilən eksponatlar siyahısındadır.

Respublikamızın bir çox bölgələrində umimmilli Heydər Əliyev muzeyləri fəaliyyət göstərir. Bu muzeylərdən biri də Naxçıvanda fəaliyyət göstərir. Bu muzey ulu öndərin şərəfinə Azərbaycan Respublikasında yaradılmış ilk muzeydir. Naxçıvanda yaradılmış Heydər Əliyev muzeyinin ölkəmizin digər bölgələrindəki muzeylərdən fərqli cəhəti ondadır ki, ulu öndərimizin həyatı və fəaliyyətindən bəhs edən bu muzey onun anadan olduğu, boya-başa çatdığı, əmək fəaliyyətinə başladığı torpaq olmaqla yanaşı, həm də dahi şəxsiyyətin haqqında çox zəngin və nadir materialların, eksponatların kifayət qədər olmasıdır.

***II iştirakçı:*** - "Əgər bütün bəşəriyyət..." adlı çıxışımda ölməz ədib Cəfər Cabbarlının ev- müzeyindən söhbət açmaq istərdik. Cəfər Cabbarlı Xızıda anadan olub, daha sonra ailənin Bakı şəhərinə köçməsi ilə əlaqədar olaraq yazıçının bütün ömrü bu şəhərlə bağlanıb. Onun Bakıdakı ev muzeyinin yerləşdiyi binanı özü tikdirib. C. Cabbarlının Bakı şəhərindəki ev-muzeyi ilə tanışlıq həyətdən başlayır. Unudulmaz sənətkarın əkdiyi tut ağacı, bu ağaca sarmaşan üzüm tənəyi habelə əncir, nar, armud ağacları əvəzsiz eksponatlardandır. Bəli, tut ağacını Cəfər bəy özü əkib. Amma tut ağacını qollu-budaqlı görmək ona müyəssər olmayıb. Axı nə ömür sürüb ki, Cəfər Cabbarlı? Cəmi 35 il. Amma bu qısa ömürdə nə qədər iş görüb: pyeslər, hekayələr, şeirlər, poema, məqalələr, ssenarilər, tərcümələr... Cəfər Cabbarlının ev- müzeyinin ekspozisiyasında da incəsənət əsərlərindən geniş istifadə edilib. Muzeyin həyətində rəssam

Mirzəağa Qafarovun "Cabbarlı dünyası" adlı mozaik pannosunda bu obrazların bir neçəsi ilə görüşürük. Pannonun mərkəzində ədibin portreti, onun ətrafında isə obrazları öz əksini tapıb. Girəcəkdə sənətkarın heykəli qoyulub. Heykəlin fonunda uşaqlıq və gənclik illəri ilə bağlı materiallar nümayiş etdirilir.

***III iştirakçı:*** - Söhbət görkəmli şəxsiyyət Mirzə Cəlildən gedirsə, icazənizlə mən *"Səni deyib gəlmişik, ustad!"* adlı çıxışımı şairin ev-muzeyi haqqında məlumata həsr etmək istərdim. Mirzə Cəlilin ədəbiyyatımızda, milli mədəniyyətimizdə müstəsna xidmətləri olmuşdur. Böyük yazıçı Cəlil Məmmədquluzadə XIX əsrin 90-cı illərində Nehrəm kənd məktəbində müəllim işləyib və burada diyarşünaslıq muzeyi təşkil edib. Muzeydə Azərbaycan tarixinə aid, habelə etnoqrafik materiallar toplayıb. Cəlil Məmmədquluzadə bu sahədə fəaliyyətinə görə Xalq məktəbləri müdriyyətinin təşəkkürünü alıb. Bu gün Naxçıvan Muxtar Respublikasında yazıçının adı ilə bağlı yerlərdə yaradılan üç xatirə muzeyi fəaliyyət ğöstərir. Bu muzeylərdən biri Cəlil Məmmədquluzadənin doğulub boya-başa çatdığı Naxçıvan şəhərində, digər ikisi isə ədibin müəllimlik etdiyi Babək rayonunun Nehrəm kəndində və Şərur rayonunun Cəlilkən kəndindədir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Dövlət Ədəbiyyat Muzeyi də böyük yazıçının adını daşıyır. Əlbəttə, bütün bunlar Mirzə Cəlil sənətinə dövlət qayğısı və ümumxalq məhəbbətinin nəticəsi kimi dəyərləndirməlidir. Yazıçının Bakı şəhərində yaradılmış xatirə muzeyi də özündə maraqlı tarix yaşadır. Məlumdur ki, C.Məmmədquluzadə eyni zamanda, Azərbaycanda ilk satirik jurnalının, bütün Yaxın Şərqdə geniş yayılmış və şöhrət qazanmış "Molla Nəsrəddin"

in yaradıcısı və naşiri olub. Jurnal əvvəllər Tiflisdə (1906-1917), sonra Təbrizdə (1921), daha sonra Bakıda (1922-1931) nəşr olunub. Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov 1921-ci ildə Cəlil Məmmədquluzadəni Bakıya dəvət edib və həmin il iyunun 21-də indi muzeyin yerləşdiyi mənzilin açarını şəxsən özü ona təqdim edib.

Uzun illər respublikamıza rəhbərlik edən Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci ildə Azərbaycanın görkəmli şəxsiyyətlərinin ev-muzeylərinin yaradılması barədə qərar qəbul olunub. Cəlil Məmmədquluzadənin ev-muzeyi də həmin qərar əsasında yaradılıb. Yazıçının həyat və yaradıcılığının müxtəlif dövrələrini əhatə edən nümunələrlə tanış olduqdan sonra onun yazı stolunun yanında ayaq saxladıq. Stolun bir küncündə yazılmışdı: "dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur"- Cəlil Məmmədquluzadə.

***IV iştirakçı:*** - Mən "*Cavid dünyasına pəncərə*" adlı çıxışımda vətən fədaisi Hüseyn Cavidin ev muzeyi haqqında məlumat vermək istəyirəm.

Hüseyn Cavid yaradıcılığı ədəbiyyat tariximizdə çox mühüm və təkrarolunmaz bir mərhələdir. 1882-ci ilin 24 oktyabrında Şərqin qapısı sayılan qədim Naxçıvan diyarının Əlixan məhəlləsində dünyaya göz açan Cavid cəmi acılı-şirinli 59 il ömür yaşamışdır. Bu ömrün bir hissəsi Təbrizdə və İstanbulda, bir hissəsi Tiflisdə, Gəncədə, Bakıda və bir hissəsi isə soyuq Sibirin ən ucqar yerində keçmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin dahi şairin irsinə verdiyi yüksək dəyərin təcəssümü olan H. Cavidin ev muzeyi 1981-ci ildə yaradılmışdır. O gündən indiyədək ev-muzey Cavid əfəndinin zəngin ədəbi irsini tədqiq və təbliğ edir. Muzey ekspozisiyasında bədii və elmi tərtibat işləri aparılmış,

1984-cü ilin iyun ayının 9-da rəsmi açılışı olmuşdur. 2000-ci ildə burada yenidən əsaslı təmir və bərpa işləri aparılmış və muzey əvvəlki görkəminə qaytarılmışdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci ildə Cavidin nəşinin uzaq Sibirdən vətəninə gətirilməsindən sonra sovetlər birliyində Cavid irsinə maraq daha da artmışdır. Elə o vaxtdan Cavidin ev muzeyi Cavid sənəti pərəstişkarlarının yaradıcılıq və tədqiqat mərkəzinə çevrilmişdir.

***V iştirakçı:*** - Mən "*Yarımçıq qalmış sinfoniya...*" adlı çıxışımı dahi bəstəkarımız Üzeyir Hacıbəylinin Bakıdakı ev-muzeyinə həsr etmək istəyirəm.

Muzeydə olduğum müddətdə sanki keçmişimizə, mədəniyyətimizin Uzeyirli çağlarına baş çəkib qayıtdım və həmin dövrü təsəvvürümdə canlandırmağa çalışdım. Bəstəkarın qonaqlı-qaralı evi... Ətrafa şən səslər yayılır. Divar saatının donmuş əqrəbləri sanki hərəkətə gəlir. Mənə elə gəlir ki, bir azdan Üzeyir bəy masanın arxasına keçərək yarımçıq qalmış simfoniya bitirəcək...

Üzeyir Hacıbəyli Azərbaycan professonal musiqi sənətinin banisi, müsəlman Şərqində ilk operanın müəllifidir. Bu evdə neçə-neçə ölməz əsərlər, bəstələr yaranıb, dövlət himnimizin ilk notları burada səslənib. Dahi bəstəkar 1948-ci il noyabrın 22-dən 23-ə keçən gecə, saat 2-də dünyasını dəyişib. Yataq otağında köhnə dolab, kamod, ipək saplarla işlənmiş qobelen, digər əşyalar var. Divarda Üzeyir bəyin həyat yoldaşı Məleykə xanımla Sank-Peterburqda çəkdiyi fotoşəkli, digər ailə fotoları asılıb. Divarda bəstəkarın dəfn mərasimini əks etdirən fotolar, Səttar Bəhlulzadənin "Şuşanın Cıdır düzü" rəsmi asılıb. Muzeyi tərk etdikdə insan sanki muzeylə deyil, dahi bəstəkarın

özü ilə vidalaşıram. Gələcəyə adımlayaraq keçmişi arzulamaq qəribə deyilmi?

***VI iştirakçı:*** - Mən "*Şair, nə tez qocaldın sən...*" adlı çıxışımda böyük şairimiz Səməd Vurğunun ev-muzeyi haqqında məlumat vermək istəyirəm. Qırx ildən çoxdur ki, Xalq şairi Səməd Vurğunun ev muzeyi yaradılıb. Muzeydə şairin naturadan çəkilmiş iki portreti var. Muzeydə maraq doğuran kiçik ölçülü başqa bir rəsm əsəri də var. Bu rəsm əsərini şairin böyük oğlu Yusif (Xalq yazıçısı Yusif Səmədoğlu) çəkib. Yusifin onaltı yaşında olarkən çəkdiyi rəsm Qazax Müəllimlər Seminariyasının tələbəsi olan Səməd Vurğunun fotoşəklinin surətidir. Muzeydə nümayiş etdirilən başqa bir boyakarlıq əsəri "Şair, nə tez qocaldın sən..." adlanır. Bu əsəri rəssam Nəcəfqulu İsmayılov işləyib və Səməd Vurğunun poetik portretini çox yaddaqalan şəkildə tamamlayıb . Tablo qarşısında şairin bu misraları yada düşür:

Saç ağardı, ancaq ürək
Alovludur əvvəlki tək.
Saç ağardı, ancaq nə qəm!
Əlimdədir hələ qələm.
Bilirəm ki, deməyəcək
Bir sevgilim, bir də Vətən:
Şair, nə tez qocaldın sən?!

Muzeydə şairin 50 illik yubileyində ona bağışlanmış incəsənət əsərləri də nümayiş etdirilir. Üzərində Səməd Vurğunun portreti olan xalça Elmlər Akademiyasının, böyük böyük rəssamımız Səttar Bəhlulzadənin fırçasından çıxmış "Qudyalçayın sahilində" əsəri Rəssamlar İttifaqının hədiyyəsidir. 1976-cı ildə şairin 70 illk yubileyi münasibəti ilə

üzərində onun portreti olan yeni bir xalça da toxunub və muzeyə təqdim olunub...

***VII iştirakçı:*** - Mən "Amalı xeyir olan şəxsiyyət" adlı çıxışımda məşhur sahibkar və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin ev-muzeyi haqqında söhbət açmaq istəyirəm. Muzeyin binası Bakının ən gözəl memarlıq abidələridən biridir və 1895-1896-cı illərdə tikilib. Hacı Zeynalabdin Tağıyevin yaşayış mülkü olan bu sarayda 1920-ci ildən bəri fasilələrlə muzey fəaliyyət göstərir. Hacı Zeynalabdinin muzeyə çevrilmiş malikanəsində 300 minədək maddi mədəniyyət nümunəsi saxlanılır. Prezident İlham Əliyevin göstərişi ilə muzeyin binası 2004-2007-ci illərdə, əvvəlki görkəmi saxlanılmaqla, əsaslı təmir olunub. Hazırda bu muzeydə 6 şöbə, 1 labarotoriya, 12 fond, 4 qrup və kitabxana fəaliyyət göstərir. Kitabxanada əsasən XIX-XX əsrin əvvəlində çap olunmuş 80 mindən çox nadir jurnal, kitab və qəzet nüsxələri toplanıb.

***VIII iştirakçı:*** - Mənim "Notların izinə çevrilən muzey" adlı çıxışım Xalq artisti, professsor, içtimai xadim, Bülbülün memorial muzeyi haqqındadır. Bülbül Azərbaycan musiqi sənətinin inkişafında yeni bir dövr açmışdır. O, nəhəng diapazonlu fəaliyyətə malik şəxsiyyət idi. O, hərtərəfli inkişaf etmiş bir sənətkar idi. İstedadı onun geniş qəlbi ilə həmahəng idi. Azərbaycan KP MK-nın və Respublika Nazirlər Sovetinin qərarı ilə 10 iyun 1982-ci ildə Bakıda Azərbaycan professonal vokal sənətinin banisi Bülbülün memorial muzeyi açılmışdır. Muzeydə Bülbülün yaradıcılığı, elmi-tədqiqi, pedaqoji və içtimai fəaliyyəti demək olar ki, geniş əks olunub. Burada 9000-dən artiq sənəd və material toplanmışdır. Bülbül bu mənzildə 1937-ci ildən ömrünün son günlərinədək, yəni 1961-ci ilin sentyabrınadək yaşayıb-yaratmışdır.

Kitabxanaçı bir həfrtə ərzində daimi oxucularla "*Könlümüzdən keçən evlər - işğal altında qalan muzeylər"* adlı *divar qəzeti* hazırlayır. Əvvəlcə oxucular bu mövzudan bəhs edən ədəbiyyatlarla tanış olub, məlumat toplayırlar. Hər bir oxucu bu mövzuda öz fikrini divar qəzetində qeyd edir və slayd hazırlayır. Ən yaxşı rəy bildirən, slayd hazırlayan oxucu kitabxananın müdriyyəti tərəfindən mükafatlandırılır.

Qəzet bu səpkidədir: "Qədim insan məskənlərindən sayılan Azərbaycan maddi mədəniyyət abidələri və tarixi özündə yaşadan sərvətlərlə zəngindir. Azərbaycanın bir parçası olan Qarabağda belə sərvətlər sayagəlməz dərəcədə idi. XX əsrin otuzuncu illərindən başlayaraq bu bölgədə bir-birinin ardınca mahiyyətinə görə müxtəlif təmayüllü muzeylər, xatirə kompleksləri, qoruqlar və sair yaradılmışdı. Təəssüf ki, Ermənistanın ölkəmizə təcavüzü nəticəsində 100 mindən artıq əşyanın toplandığı 22 muzey işğal olunmuş ərazidə qalıb. Həmin ərazilərimizdə xalqımıza məxsus 83. 500 ədəddən çox eksponat, 14 xatirə kompleksi və 1891 maddi mədəniyyət resursu talan olunub, 738 tarixi abidə, 28 muzey və 4 rəsm qalereyası tamamilə məhv edilib. Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları və digər eksponatlar toplandığı bu muzeylər düşmən tərəfindən qarət olunub. Təkcə Şuşa şəhərində 8 muzey fəaliyyət göstərirdi: Dövlət Qarabağ Tarixi Muzeyi, Uzeyir Hacıbəylinin, Azərbaycanın görkəmli xanım yazarı xan qızı Natavanın, musiqi sənətimizin alovlu təbliğatşısı və tədqiqatçısı Bülbülün, Mir Möhsün Nəvvabın və başqalarının ev-muzeyləri. Azərbaycan Xalça Muzeyinin Şuşa filialı,

Qurban Primovun Ağdam rayonundakı xatirə, eləcə də Xocalı, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarının da tarix-diyarşünaslıq muzeyləri Ermənistanın təcavüzünə məruz qalaraq darmadağın olunmuşdur. Keçmiş SSRİ- də yeganə olan Ağdam Çörək Muzeyi yerlə-yeksan edilmişdir. Ermənilərin törətdikləri vandalizm aktları "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeloji irsin nümayəndəsi", 1992-ci il Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" YUNESKO-nun 1972-ci Konvensiyasına ziddir. Azərbaycan nümayəndə heyətləri bu problemi mütəmadi olaraq beynəlxalq tədbirlərdə gündəmə gətirirlər."

Bütün bunlarla yanaşı, divar qəzetində "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" materiallar da verilir: "Azərbaycan mədəni irsinin qorunması, beynəlxalq miqyasda tanıdılması daim diqqət mərkəzindədir. Xüsusilə son illərdə bu sahədə geniş işlər görülüb. 1993-cü ildə təsis edilən İCOM Azərbaycan Milli Komitəsi baş qurumun işində iştirak edir, müasir mərhələdə maddi və qeyri-maddi nümunələrimizi dünyaya daha yaxından tanıdır, Azərbaycanda muzey işinin təkmilləşdirilməsi üçün beynəlxalq muzeylərlə əlaqə yaradır, mədəni irsin qorunması istiqamətlərində dünya muzeyləri ilə bir sırada öz işini davam etdirir. Milli Komitə yarandığı gündən Azərbaycan muzeyləri ilə beynəlxalq muzeylər arasında Azərbaycanın mədəni irsinin tanıdılması məqsədilə sıx əməkdaşlıq əlaqələri yaradır."

Milli dəyərlərimizi və muzeylərimizi tanıtmaq, uşaq və yeniyetmələri muzeylərə alışdırmaq məqsədilə kitabxanada oxucular və yuxarı sinif şagirdləri arasında keçirilə biləcək

tədbirlərdən biri də, “Şair ocağı” adlı *icmaldır.* İcmal Salman Əhmədlinin “Hüseyn Cavidin ev muzeyi” və Arzu Hacızadənin tərtib etdiyi “Abdulla Şaiqin Mənzil Muzeyi” kitabları əsasında aparılır. Tədbirə ədiblər, oxucular və məktəblilər dəvət olunurlar. Kitabxanaçı ilk olaraq qonaqları salamlayır və muzeylər haqqında ümumi məlumat verdikdən sonra “Abdulla Şaiqin Mənzil Muzeyi” kitabının annotasiyasını nəql edir. Kitab uşaqların sevimlisi Abdulla Şaiqin Mənzil Muzeyinin yaranmasının 20 illiyinə həsr edilib. Kitaba muzeyin fəaliyyətini əks etdirən sənədlər, Azərbaycan ədəbiyyatının klassiki Abdulla Şaiqin həyat yolu nə yaradıcılığı ilə bağlı muzeydə sərgilənən eksponatların fotoşəkilləri, muzeyi ziyarət edən qonaqların rəyləri və digər materiallar daxil edilib.

***Kitabxanaçı:*** -Tədbirə ulu öndər Heydər Əliyev və digər görkəmli şəxsiyyətlərin bu muzey haqqında söylədikləri sitatlarla başlamaq istərdim:

“Ziyalıların, mədəniyyət və elm xadimlərinin, cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları ilə, öz mədəniyyəti, öz elmi ilə tanınır. Abdulla Şaiqin çoxşaxəli fəaliyyətinin böyük bir qismi Azərbaycanda maarifçiliyin müxtəlif sahələri ilə bağlı olmuşdur. Ali və orta təhsil məktəbləri üçün onlarla dərsliyin müəllifi olmuş Abdulla Şaiqin uzun müddətli pedoqoji fəaliyyəti milli təhsilimizin yeni mərhələyə yüksəlişində mühüm rolu olmuşdur”.

**Heydər Əliyev,**
*ümummilli lider*

“Abdulla Şaiqin Mənzil Muzeyini Azərbaycan vətəndaşları ilə yanaşı, respublikaya gələn qonaqlar da ziyarət edirlər. Və hər dəfə bu müqəddəs ocaq özünün tədqiqatçılıq və təbliğatçılıq fəaliyyəti ilə azərbaycançılıq ideologiyasına, milli dövlətimizin qorunmasına xidmət etmiş olur”.

**Əbilfəz Qarayev**,
*Mədəniyyət və Turizm naziri*

“Mənim bütün həyatım bu muzeyin binası ilə bağlı olub. Mən bu mənzildə dünyaya gəlmişəm - bu mənzildə doğulmuşam, böyümüşəm. Abdulla Şaiq ocağının bütün sirlərinə, bu ocaqla bağlı bütün şəxsiyyətlərinə bağlanmışam... Bu otaqlar çox şirin xatirələrlə bağlıdır-ata-anamın da, Səməd Vurğunun da, mənim də toyum burada olub... Bura çox müqəddəs, mənim üçün əziz və doğma olan bir ocaqdır. Azərbaycanın ədəbi-içtimai həyatı ilə bağlı zəngin, rəngarəng xatirələrlə dolu olan bir ocaqdır. Azərbaycan ədəbiyyat tarixində müstəsna yer tutan bir şəxsiyyətin - Abdulla Şaiqin ocağıdır”.

**Kamal Talıbzadə**,
*akademik*

***Kitabxanaçı:*** -Azərbaycanda muzeylər şəbəkəsi geniş vüsət almışdır. O cümlədən respublikada fəaliyyət göstərən xatirə muzeyləri də milli mədəniyyətimizin təbliğində önəmli yer tutur. Muzeylər özünün tədqiqat və təbliğat funksiyasına görə hər bir xalqın milli-mənəvi sərvətidir. Respublikamızda yaradılan muzeylər sırasında görkəmli şəxsiyyətlərin xatirə muzeyləri mühüm yer tutur.

Abdulla Şaiq ədəbiyyat tariximizdə qüdrətli söz ustaları ilə bir sırada durur. Onun hekayələri, povesləri və romanları Azərbaycan bədii nəsrinin inkişafında mühüm rol oynamışdır. Azərbaycanda Abdulla Şaiqin adını daşıyan müxtəlif

mədəniyyət müəssisələri fəaliyyət göstərir. Şaiqin Mənzil Muzeyi XX əsrin ədəbi-mədəni mühitini, dövrün bir çox ziyalılarının həyatını və içtimai yaradıcı fəaliyyətini özündə əks etdirir. Böyük maarif xadimi, gözəl ədib Abdulla Şaiq Azərbaycanda milli məktəbin yaranması, pedaqogikanın inkişafı, poeziyanın, nəsrin, bədii tərcüməçilik sənətinin, uşaq ədəbiyyatı və dramaturgiyasının yaranmasında əvəzsiz xidmətlər göstərmişdir. Abdulla Şaiqin Mənzil Muzeyinin fəaliyyəti daim Mədəniyyət və Turizm Nazirliyinin diqqət mərkəzində olmuşdur.

Abdulla Şaiqin xidmətləri Azərbaycan dövlətçiliyinin bütün dövrlərində yüksək qiymətləndirilmişdir. Muzeyin çox zəngin fondu var ki, burada Abdulla Şaiqin şəxsi kitabxanasına məxsus nadir bibloqrafik nəşrlər, onun yaratdığı dərsliklər, əsərləri ilk dəfə nəşr olunan dövrü mətbuat nümunələri, ədibin yaradıcılığına, şəxsiyyətinə həsr edilmiş zəngin ədəbiyyat, oğlu Kamal Talıbzadənin ədəbi yaradıcılığını əks etdirən nəsrlər toplanmışdır. Muzeyin ekspoziyası dörd otaqdan ibarətdir. Bu otaqların hər biri Abdulla Şaiq şəxsiyyətini müəyyən mənada açır. Birinci otaq Abdulla Şaiqin dünya şöhrətinə həsr edilib. Burada şairin müxtəlif dillərdə tərcümə edilib, xarici ölkələrdə nəşr olmuş əsərləri, Abdulla Şaiqin özünün rus, ərəb, fars dillərindən tərcümə etdiyi əsərləri, görkəmli elm və maarif xadimlərinin Şaiq haqqında yüksək fikirləri həkk olunmuş tablolar nümayiş etdirilir. Abdulla Şaiq N.Gəncəvinin, Ə.Firdovsinin, V.Şekspirin, A.Puşkinin, M.Lermantovun, L.Tolstoyun, İ.Krılovun və başqalarının əsərlərini Azərbaycan dilinə tərcümə etmiş, dərsliklər yazmışdır. Muzeydə dramaqturqun tərcümə etdiyi əsərlərdən ibarət geniş bir stend tamaşaçıların böyük marağına səbəb

olur. Abdulla Şaiqin yaradıcılığının, demək olar ki, bütün sahələri tədqiq olunmuşdur və bununla bağlı dərc edilmiş onlarla kitab və çoxsaylı məqalələrə ekspozisiyada xüsusi yer ayırılmışdır. İkinci otaq - qonaq otağında Abdulla Şaiqin nəsli, ailəsi haqda geniş məlumat almaq olar. Ekspozisiyanın üçüncü otağına epiqraf Abdulla Şaiqin məşhur bir kəlamı, “Mən yazıçılığımdan ziyadə, müəllimliyimlə fəxr edirəm” ifadəsi götürülmüşdür. O, uzun illər Gənc Tamaşaçılar Teatrının ədəbi-bədii hissə müdiri olmuş, Azərbaycanda uşaq dramaturgiyasının əsasını qoymuş, uşaq teatrı yaratmışdır. Onun dramaturji fəaliyyəti ilə bağlı sənədlər və fotolar ekspozisiyanın üçüncü otağında yer almışdır. Dördüncü otaq Abdulla Şaiqin iş otağıdır. Burda onun müxtəlif illərdə nəşr edilən əsərləri, repressiya dövrü yaradıcılığı, ədəbiyyatşünaslıq fəaliyyətinə dair informasiya təqdim edilib. Bu otaqda Abdulla Şaiqə aid olan memorial eksponatlar, yazı masası, şəxsi əşyalar nümayiş etdirilir. Abdulla Şaiqin iş otağı muzey ziyarətçilərində sonsuz maraq doğuran məkanlardandır. Çünki burada onlar Şaiq yaradıcılığı ilə tanış olmaqla yanaşı, ədibin şəxsi əşyaları, yazı masası, geyimi ilə interaktiv əlaqəyə girmək imkanı əldə edirlər. Qeyd etmək lazımdır ki, muzeyin ekspozisiyası fonda qəbul oluna yeni eksponatların istifadəsi ilə daim dəyişir, yeniləşir.

Muzey əməkdaşları hər eksponat haqqında qonaqlara ətraflı məlumat verməklə, onların ədib haqqındakı təəssüratlarını zənginləşdirir, dünya görüşlərinin genişlənməsinə şərait yaradır. Bu da, öz növbəsində, Abdulla Şaiqin yaradıcılığının əsas məqsədi hesab edilən təlim-tərbiyə prosesinin davamıdır. Muzeydə hazırlanan hər bir tədbir uşaq və yeniyetmələrin

mənəvi tərbiyəsi işində görüləcək işlərin həyata keçirilməsinə təkan verir.

Respublikamızın müxtəlif bölgələrinin, eləcə də Bakının təhsil ocaqlarınının tələbələri, məktəbliləri ədibin xatirə muzeyini vaxtaşırı ziyarət edir, onun dramaturgiyasını, lirikasını, nəsr əsərlərini indi də sevə-sevə mütailə edirlər. F. Köçərli adına Respublika Uşaq Kitabxanasının saytında Abdulla Şaiqlə bağlı elektron məlumat bazası yerləşdirilmişdir. Burada ana səhifə, yazıçının həyat və yaradıcılığı, həyat və fəaliyyətinin əsas tarixləri, A.Şaiqin müdrik deyimləri, görkəmli şəxslər Şaiq haqqında, əsərləri, sözlərinə yazılmış mahnılar, A.Şaiqə həsr olunmuş şeirlər, fotoqalereya, videoqalereya verilmişdir. Həmçinin Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə, A.Şaiqin bibloqrafiyası F. Köçərli adına RUK-un ölkəşünaslıq şöbəsi tərəfindən hazırlanmış və nəşr edilmişdir.

A.Şaiqin Mənzil Muzeyinə həsr olunmuş tədbir sona çatdıqdan sonra kitabxanaçı ikinci bir muzey haqqında “Cavid dünyasına səyahət - Hüseyn Cavidin Ev-Muzeyi” haqqında məlumata keçid alır. O, əvvəlcə “Hüseyn Cavidin Ev-Muzeyi” kitabının annotasiyasını nəql edir.

*Kitabxanaçı:* - Kitab Hüseyn Cavidin Ev-Muzeyinə həsr edilmişdir. Kitabda muzeyin yaranma tarixindən, oradakı eksponatlardan, muzeyə verilmiş hədiyyələrdən və Hüseyn Cavidin Naxçıvandakı ev muzeyindən bəhs edilir. Sözlərimi görkəmli şəxsiyyətlərin dahi şair haqqında söylədikləri fikir və kəlamlarla davam etdirmək istərdim.

"Hüseyn Cavid həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur. Onun yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Ümidvaram ki, Cavid ocağı xalqımızın tarixinin, ədəbi irsinin milli-mənəvi dəyərlərinin gənc nəsillə aşılanmasında misilsiz rol oynayacaqdır."

**Heydər Əliyev,**
*ümummilli lider*

"Hüseyn Cavid Azərbaycan teatrının Şekspridir".

**Mikayıl Müşfiq,**
*Şair*

"Cavidi teatrsız, teatrı Cavidsiz düşünmək olmaz."

**Cəfər Cəfərov,**
*tarix elmləri doktoru*

"Hər şeyə görə - atamı Vətən torpağına qovuşdurduğuna, əzizlərimi bir sərdabədə - Cavid məqbərəsində görüşdürdüyünə, Cavid ocağının çırağını yenidən yandırdığına görə unudulmaz Heydər Əliyevə minnətdaram."

**Turan Cavid,**
*Əməkdar mədəniyyət işçisi*

Turan xanım Cavid irsinin ən böyük pərəstişkarlarından və təbliğatçılarından biri idi. Şairin ev-muzeyinin yaradılması əsərlərinin ən mükəmməl nəşrinin hazırlanması bilavasitə onun adı ilə bağlıdır. Sovet dövrü nəşrlərində Cavidin imlasına müdaxilə olunmuş, bir çox yerlərdə isə təhriflərə yol verilmişdir. Turan xanımın hazırladığı son beşcildlik külliyatda Cavidin ilkin imlası, demək olar ki, bərpa olunmuş,

böyük şair-dramaturqun hətta indiyə qədər çap olunmamış əsərləri də ilkin şəkildə oxuculara çatdırılmışdır. Bu gün Hüseyn Cavidin Ev-Muzeyində şairin irsinin təbliği və araşdırılması, eləcə də tərcüməsi və internet vasitəsilə dünyaya yayılması yönündə mühüm işlər görülür.

Muzey Bakıda - Hüseyn Cavidin 1920-37-ci illərdə yaşadığı evdə (İstiqlaliyyət küç.8) yerləşir. Hüseyn Cavidin ev muzeyi 1981-ci ildə Azərbaycanın dahi mütəfəfəkkiri, filosofu şair-dramaturqu Hüseyn Cavidin anadan olmasının 100 illiyi münasibətilə ölkə başçısı, ümummilli liderimiz Heydər Əliyevin 25 noyabr 1981-ci il tarixli, 604 saylı sərəncamı ilə yaradılmışdır. Muzey əvvəl Mədəniyyət Nazirliyinin tərkibində Hüseyn Cavidin xatirə muzeyi adı ilə, sonra isə, 1995-ci ildə Azərbaycan Respublikası Nazirlər Katinetinin 10 iyul 1995-ci il 160 saylı qərarı əsasında AMEA-nın tərkibinə daxil olmuşdur. Hüseyn Cavidin ev-muzeyinin açılışı 2002-ci il oktyabr ayının 24-də, şairin 120-ci doğum günündə olmuşdur. AMEA-nın nizamnaməsi və AMEA-nın Rəyasət Heyətinin qərarına müvafiq olaraq elmi-tədqiqat idarəsi hesab edilir. Muzeydə 6 şöbə fəaliyyət göstərir.

Ekspozisiyası 4 otaqdan ibarət olan muzeyin ümumi sahəsi 245 kvadratmetrdir. Muzeyin əsas fondunda 15. 000 eksponat var. Ekspozisiyada 850 eksponat nümayiş olunur. Bu eksponatlar Hüseyn Cavidə məxsus sənədləri, ailəyə məxsus məişət və geyim əşyalarını, Hüseyn Cavidin əlyazmalarını, müxtəlif illərdə nəşr olunmuş kitabları, səhnə əsərlərinin proqram və afişalarını, tamaşalardan fotoşəkilləri və ailəvi fotoşəkilləri əhatə edir. Muzeyə 2004-cü ilin sentyabr ayına kimi Turan Cavid rəhbərlik etmişdir.

Muzeyin girəcəyində hekəltəraş Ömər Eldarovun yaratdığı və əsli Hüseyn Cavid prospektində MEA-nın əsas binası ilə üzbəüz bağda ucalan, tuncdan tökülmüş Cavid abidəsinin gipsdən olan kiçik variantı qoyulmuşdur (1993). Muzeyin ekspozisiyası 4 otaqda yerləşmişdir.

Son ildə muzeyə 4230 ədəd sənəd və eksponat daxil olmuş və qeydiyyatdan keçmişdir. Beləliklə, eksponatların sayı 5450-dən 9680-ə çatmışdır. Hüseyn Cavidin doğma vətəni Naxçıvanda da ev-muzeyi açılmış və fəaliyyət göstərməyə başlamışdır. Hüseyn Cavidin Naxçıvan şəhərində ev-muzeyi Azərbaycan KP MK-nın 25 dekabr 1980-cı il tarixli qərarı və Azərbaycan Nazirlər Sovetinin 13 fevral 1981-ci il tarixli sərəncamı ilə yaradılıb. Muzeyin rəsmi açılışı 1984-cü il iyun ayının 9-da olmuşdur. Muzeyin ekspoziyası və mövzu-tematik planı mərhum teatrşünas Tamilla Təhmasib tərəfindən hazırlanmışdır. Hüseyn Cavidin ev-muzeyində hazırda 7200-ə yaxın eksponat toplanmışdır. Onların içərisində Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən foto-şəkillər, sənədlər, əsərlərinin ilk nəşrləri, üzərində müəllifin aftoqrafı olan 1934-cü ildə nəşr olunmuş “Səyavuş” və 1926-cı ildə nəşr olunmuş “İblis” əsərləri, böyük şairin yubileyləri, onu müxtəlif teaqtrlarda tamaşaya qoyulmuş afişa və proqramları, müxtəlif xatirə əşyaları vardır. Bu eksponatlar içərisində ədibin yaxın dostu Əziz Şərifin muzeyə şəxsən üzünü köçürüb bağışladığı Cavidin İstanbuldan Qurbanəli Şərifzadəyə göndərdiyi məktublardan ibarət dəftəri, şairin qızı Turan Cavid tərəfindən hədiyyə edilmiş “Knyaz” əsərinin əlyazmasını və ailə şəkillərin orijinallarını, Ərtoğrol Cavidin hərbi xidmət illərində 1942-ci ilin 7 oktyabr tarixinə kimi Abxaziyadan, Tbilisi Hospitalından və Naxçıvandan Bakıya - anası Mişkinaz Cavidə və bacısı

Turan Cavidə yazdığı 71 ədəd məktubu xüsusi qeyd etmək olar.

*Tədbirin sonunda oxucular şair haqqında yazılmış şeirlər söyləyirlər.*

***I iştirakçı:***

- Naxçıvanda Cavid çıxdı qarşıma,
Türbəsiydi indi vətən Cavidin.
Şahlıq quşu gördüm qonub başına,
Sürgünlərdə qəbri itən Cavidin.

Tutdurdular, öldürdülər şairi,
Yasaq oldu o şairlər şairi.
Türbəsinə qoymayın hər şairi,
Ruhu pakdı ilahidən Cavidin.

Qılıncını üstə çəkdi xəyanət,
Köməyinə nə dost çatdı, nə millət.
İlhamından qisas aldlı cəmiyyət,
Taleyindən üzü dönən Cavidin.

Gedən getdi, qalanları qaldılar.
Xiyabanda fəxri yerlər aldılar.
Atabəylər torpağında yadigar
Cavid qaldı fəxri adı Cavidin.

Başqaları bir ağ günə çıxdılar,
Tamaşaydı, səsə-ünə çıxdılar.
Yer altlından, yer üstünə çıxdılar,
Dalısınca Müşfiq, Hadi Cavidin.

Nəriman Həsənzadə

*Muzeylərimizi tanıtmaq, oxucuların muzeylərə səyahətini adət halına salmaq üçün kitabxanalarda keçirilən tədbirlərdən biri də "***Muzeylər haqqında nəyi bilirəm***" adlı rəy sorğusudur. Bunun üçün məktəblilər əvvəlcədən muzeylərə səyahət edib həmin məkanlarla yaxından tanış olurlar. Kifayyət qədər bilgi əldə etmiş şagirdlər kitabxanaya gəlib tədbirdə iştirak edirlər. Kitabxanaçı əvvəlcə qonaqları və iştirakçıları salamladıqdan sonra muzeylər haqqında qısa və gərəkli məlumatlar verir. Məlumatdan sonra suallar yazılı və test şəklində iştirakçılara təqdim* olunur.

1. Tariximizi əks etdirən məkanlar haradır?
   a. Uşaq bağçası.
   b. İstirahət məkanları.
   c. Muzeylər.

2. Respublika muzeylərinin mirvarisi və yeganə bədii yönümlü ünvanı hansı muzeydir?
   a. Mülki Aviasiya muzeyi?
   b. Azərbaycan Dövlət İncəsənət Muzeyi.
   c. İstiqlal muzeyi.

3 . Hansı muzeylərdə olmusunuz?

____________________

____________________

____________________

4. Gəncə şəhərində hansı dahi şairin muzeyi vardır?
   a. Nizami Gəncəvi
   b. Hüseyin Cavid.
   c. Cəlil Məmmədquluzadə.

5. Bu şəxsiyyətlərdən hansı xalçaçılıq sənətində öz layiqli sözünü demişdir ?

a. Sabir Rüstəmxanlı.

b. Bülbül.

c. Lətif Kərimov.

6. İlmələrin dilini, sehrini bizə bəxş edən muzeyimiz hansıdır?

a. Xalça Muzeyi.

b. Ədəbiyyat Muzeyi.

c. Cəfər Cabbarlı Müzeyi.

7. Muzeylər yaranmazdan əvvəl müxtəlif sənədlər, qiymətli əşyalar harada saxlanılırdı?

a. Məktəblərdə.

b. Saraylarda.

c. Küp və dolçalarda.

8. Dünyada ilk muzey harada yaradılmışdır ?

a. Azərbaycanda.

b. Yunanıstanda.

c. Belarusiyada.

9. Hansı dövlət Qarabağ ərazisindəki torpaqlarımızı və eləcə də o bölgələrdə olan muzeylərimizi, milli sərvətlərimizi qarət etmişdir?

a. Türkiyə.

b. Ermənistan.

c. Hindistan.

10. Yazarlarımızın, ədiblərimizin əlyazmaları, kitabları, şəxsi əşyaları hansı muzeydə saxlanılır?

a. Ədəbiyyat muzeyi.

b. Mülki Aviasiya muzeyi.

c. Miniatür kitab muzeyi.

11. Muzeylərdə saxlanılan əşyalara nə ad verilir?

a. Sevilən əşya.

b. Qalaktika.

c. Eksponat.

12. Eksponatların tarixini və dəyərliliyini necə öyrənə bilərik?

a. Muzey işçisinin verdiyi məlumatlar əsasında.

b. Həmin əşyanı əlimizə götürməklə.

c. Bu eksponatı məktəbə aparıb müəllimə müraciət etməklə.

13. Hər an hər kəsin üzünə açıq olan və ən yüksək səviyyədə bilgiləndirilən muzeylərdə qadağan olunmuş hərəkərlər hansılardır?

a. Məlumat verən muzey işçisinə sual vermək.

b. Eksponatlara toxunmaq və onu özünlə götürmək.

c. Eksponatın qarşısında dayanmaq.

14. Hər hansı bir muzeyə səyahət etdikdən sonra hansı hisləri keçirirsiz?

---

***Sualların cavabları: 1. c; 2. b; 3... ; 4. a; 5. c; 6. a; 7. b; 8. b; 9. b; 10. a; 11, c; 12. a; 13. b; 14. ....***

Muzeylərlə bağlı kitabxanada keçirilə biləcək tədbirlərdən biri də viktorinalardır. Sual-cavab "Muzeydə öyrəndiklərim..." adı altında keçirilir. Bunun üçün iştirakçılar və oxucular əvvəlcədən bir çox muzeylərə səyahət edib yaxından tanış olurlar. Kifayət qədər material əldə etdikdən sonra müəyyən olunmuş tarixdə kitabxanaya gələrək tədbirdə iştirak edirlər. Tədbirin əvvəlində iştirkçılardan biri şair Sabir Arazlının "**Muzey baba, görüşünə gəlmişəm!"** şeirini söyləyir.

Muzey baba, görüşünə gəlmişəm!
Azıxdakı bu yarğanlar,  mağaralar,-
Bu od-ocaq "əlifbamdı".
Bir müqəddəs kitabəmdi...
Bu oyuqlar,
bu yurd daşı daş yaddaşı, yaranışdı.
Bu kilimlər, bu başlıqlar...
Neçə adla toxumanın hər birisi.
bir zəriflik, bir incəlik, bir naxışdı.
Hər birisi sənət, amal dünyasıdı, muzey baba.
Giziltili barmaqların möcüzəsi, ziyasıdı,  muzey baba.
Sən tarixin güzgüsüsən...
Bu gil kasa,
Bu saxsı küp, bu mis tava,
at heykəlcik, təknə qəbir,
müdriklərin töhfəsidir, miras qalıb.
Bu daş deyil, saxsı deyil,
dəmir deyil...
duyanlardı, görənlərdi.
Qaya-qaya düzümlənən ərənlərdi, varis qalıb.
Bu bənzərsiz, bu solmayan naxışları kim çəkibdi?
Min dörd yüz il ömür sürən, bu çinarı kim əkibdi?..
Yaddaşını çözələ bir, muzey baba.
Kim tutubdu de, bu gürzü.
Kim sıyırıb öz qınından bu qılıncı...
Bunlar gərək
Aqillərin idrakınca yozula bir,  muzey baba.
...Eksponat deyil, bu od əzəlimdi, əlifbamdı.
Bu müqəddəs kitabəmdi.
Mən bunları

Bir əvəzsiz mülk bilmişəm.
Muzey baba, görüşünə gəlmişəm!

Tədbir zamanı ilk olaraq kitabxanaçı iştirakçıları salamlayır və onlara bu gözəl təşəbbüsə görə minnətdarlıq edir. Bundan sonra o, muzeylər haqqında, muzeylərin həyatımızda rolu barədə qısa və dəqiq məlumatlar verir.

*Kitabxanaçı muzeyləri ziyarət edən iştirakçılara burada gördükləri məlumatları söyləmək üçün söz verir.*

***I iştirakçı:*** - 1920-ci ildən başlayaraq Azərbaycanın bir çox şəhərlərində - Gəncə, Naxçıvan, Lənkəran və Şəkidə tarix-diyarşünaslıq muzeyləri yaradılıb. Ötən əsrin 70-ci illəri Azərbaycanda muzey şəbəkəsinin daha sürətli inkişafı ilə yadda qalıb. Bu da Azərbaycana rəhbərlik edən görkəmli siyasi xadim Heydər Əliyevin fəaliyyəti və şəxsi təşəbbüsü ilə bağlı idi. Bu dövrdə və sonrakı illərdə Azərbaycanın görkəmli incəsənət və ədəbiyyat xadimlərinin bir neçəsinin xatirə muzeyləri açılıb. Keçən əsrin 80-cı illərin də, müvafiq qanuna uyğun olaraq, Azərbaycanın, demək olar ki, bütün bölgələrində tarix-diyarşünaslıq muzeyləri yaradılıb. Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyi də həmin il təşkil olunub. Muzeydə bu şəhərin iki min beş yüz illik tarixini əks etdirən on iki mindən çox tarixi və elmi əhəmiyyətə malik eksponat mühafizə olunur. Qəbələ Azərbaycanın ən qədim diyarlarındandır. Bunu tarix-diyarşünaslıq muzeyində saxlanılan eksponatlar, arxeloji, etnoqrafik, numizmatik materiallar, xalq sənəti nümunələri, qədim əlyazmalar da təsdiqləyir. Fondda 12 mindən çox eksponat saxlanılır. Bunların əksəriyyəti nadir eksponat hesab olunur. Tarix-diyarşünaslıq muzeyinin binası doqquz yüz kvadratmetr təşkil edir, Bundan əlavə, muzeyin bir hektar torpaq sahəsi, 13 ekspozisiya zalı, fondu, Heydər Əliyevlə

bağlı xatirə otaqları, şəkil qalereyası, zəngin elmi kitabxanası, qədim daş abidələrdən açıq səma altında təşkil olunmuş sərgi meydançası vardır.

***II iştirakçı:*** - Şərur güc-əzəmət, bolluq-bərəkət rəmzi olan məkandır. Sinəsindən axan Arpaçayın çağlayıb xan Araza qovuşduğu bu qədim diyar Dədə Qorqud eli, Babək vətəni əkinçilər, biçinçilər yurdu, bu müqəddəs yurdun hər məkanın hər qarışı bir tarixdir. Bu tarixin daş kitabələrini vərəqlədikcə ulu keçmişimizin, əcdadlarımızın yaşayışı, həyat tərzi, məişəti, əkinçilik mədəniyyəti, toyu-düyünü, adət-ənənəsi göz önündə canlanır. Şərur şəhərinin mərkəzində əzəmətli bir binada rayon tarix-diyarşünaslıq muzeyi yerləşir. Muzeyə daxil olduqda özünü sanki nağıllar aləmində hiss edirsən. Binanın tavanındakı beş guşənin hər biri xalqımızın qəhrəman oğullarının igidlik dastanından söhbət açır. 1978-ci ildən içtimai əsaslarla fəailiyyətə başlayan muzey 1980-cı ildə ulu öndər, müdrik rəhbərimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə rəsmi dövlət müəssisəsinə çevrilib. 30 ilə yaxın bir vaxtda muzeyin fonuna 7000-ə yaxın eksponat toplanıb. Muzeydə iki şöbə və on iki bölmə fəaliyyət göstərir. Muzeydə saxlanılan və nümayiş etdirilən eksponatların demək olar ki, əksəriyyəti Şərur ərazindən toplanıb. Eramızdan əvvəl III-II minilliklərə aid gil qablar, daş alətlər, büt daşı və keramik bəzək nümunələri, tunc bilərzik, balta xəncər, nizə ucluqları və s. əşyalar nadir tapıntılardır. Orta əsr Azərbaycan mədəniyyəti xalçaçılıq sənəti ilə daha çox yadda qalır. Qədim Şərurda özünəməxsus inkişaf yolları olan bu sənətin tarixindən muzeyin eksponatlarına çevrilmiş kilim, xalça nümunələri söz açır, bər-bəzəkli farmaşlar, xurcunlar, heybələr, həmin təsəvvürü daha da zənginləşdirir. Əmək alətləri olan xış, cüt,

kotan, vəl, mərəndi, və digər təsərüfat alətləri qədim əkinçilik mədəniyyəti barədə geniş təsəvvür yaradır. Tamaşaçılar mədəniyyət bölməsini də xüsusi maraqla seyr edirlər.

***III iştirakçı:*** - Azərbaycanda ilk şəxsi muzey 1989- cu ildə yaradılıb. Beynəlxalq reyestrə və "Azərbaycan muzeyləri" adlı kitaba daxil "Rinay" malakofauna muzeyinin dünyada analoqu yoxdur. Muzeyin kolleksiyasında dünyanın müxtəlif okean, dəniz və göllərindən tapılan 5 minədək molyusk qabığı nümunələri nümayiş olunur. Muzeyin yaradıçısı geologiya-minerologiya elmləri üzrə tanınmış mütəxəssis, professor Tofik Qarayevdir. Qeyd edək ki, Tofik Qarayev ömrünün 40 ilini bu işə sərf edib. O, Azərbaycanın regionlarında, dağlarında, düzlərində geoloji ekspedisiyalar zamanı əldə etdiyi nadir eksponatları toplayaraq muzeyi zənginləşdirib. Dünyanın bütün qitələrindən olan dəniz məhsullarına yalnız burada rast gəlmək olar. Gələnləri Xəzər dənizinin inciləri də çox maraqlandırır.

***IV iştirakçı:*** - Son illər Azərbaycan muzeylərinin beynəlxalq əlaqələri getdikcə genişlənir, muzey işi sahəsində müxtəlif müqavilələr imzalanır. Bir çox ölkələrdə-Pakistanın İslamabad şəhərinin Etnoqrafiya Muzeyində, Şərqi Qazaxıstan Vilayəti Arxitektura-Etnoqrafiya və Təbiət-Landşaft Qoruq Muzeyində, Daşkənd Peoqoji Universitetinin Nizami Gəncəvi Muzeyində, Çinin Folklor Qadın və Uşaq Muzeyində və digərlərində Azərbaycana aid guşələr yaradılıb. Azərbaycan Dövlət İncəsənət Muzeyi ilə Belarus Milli İncəsənət Muzeyi, Azərbaycanın Muzey Mərkəzi ilə Norveçin Stavanger şəhər Arxelogiya Muzeyi, Mədəniyyət və Turizm Nazirliyi ilə Fransanın Luvr Muzeyi, Azərbaycan Dövlət İncəsənət Muzeyi ilə Rusiya Dövlət Ermitajı arasında əməkdaşlıq müqavilələri

bağlanıb. Azərbaycanın muzey mütəxəssisləri bir çox beynəlxalq konfrans, simpozium, seminar-treninqlərdə iştirak edirlər. Muzeylər vasitəsilə Azərbaycan mədəniyyəti və tarixi digər ölkələrdə təbliğ edilir.

Şagirdlər arasında muzeylərimizin təbliğini gücləndirmək və daha yaxından tanıtmaq məqsədilə kitabxanada müxtəlif adda tədbirlər keçirilə bilər. Bunlardan biri rəsm müsabiqəsidir. Muzeylərlə yaxından tanış olan iştirakçılar onların diqqətini cəlb edən və yaddaşına həkk olunan hər hansı bir məkanın, obyektin, əşyanın, eksponat və hər hansı bir görkəmli şəxsiyyətin rəsmini çəkirlər. Onlar təyin olunmuş vaxtda kitabxanaya gəlir və tədbirdə iştirak edirlər. Müsiflər heyəti rəsm əsərlərini diqqətlə nəzərdən keçirərək qalibləri mükafatlandırır.

**Ədəbiyyat siyahısı**

**Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu (24 mart 2000-ci il)//** Azərbaycan. – 2000. -22 iyun. - № 140 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. – 2000. – 30 iyun. - № 6.

***Kitablar***

**Abdulla Şaiqin mənzil** muzeyi : 1991-2011. - Bakı : Aspoliqraf, 2011. - 160 s. : foto, rəngli şək.

**Abdulla Şaiqin mənzil** muzeyi - Bakı : Aspoliqraf, 2010. - 31 s. : rəngli foto. - Azərbaycan, ingilis və rus dillərində.

**Bülbülün xatirə muzeyi** : Bələdçi - kitab = Мемориальный музей Бюль - Бюля : Краткий путеводитель = Bulbul`s memorial museum : Gide - book . - Bakı : Gənclik, 2006. - 60 s.

**Əhmədli S.** Hüseyn Cavidin ev muzeyi - Bakı : Şirvannəşr, 2009. - 168 s. : rəngli foto, foto.

**Məsimov S.** Məktəb muzeyləri : Əyani metodik vəsait. - Bakı : "Təhsil"NPM, 2008. - 94 s.

***Dövri mətbuatda***

**Abbasov E.** Azərbaycan Hərb Tarixi Muzeyinin 20 yaşı tamam oldu // Xalq qəzeti. - 2012. - 22 dekabr. - № 286. - S. 11.

**Abbasov İ.** Muzeylərimiz tarix və mədəniyyətimizi yaşadır : Abdulla Şaiqin mənzil muzeyindən xoş təəssüratlarla // Mədəniyyət. - 2011. - 30 noyabr. - № 88. - S. 10.

**Ağayeva G.** Muzeylər milli mədəniyyət nümunələrimizin qorunduğu məkandır : 18 may Beynəlxalq Muzeylər Günüdür // Xalq qəzeti. - 2014. - 18 may. - № 103. - S. 7.

**Ağayeva S.** Tariximizi yaşadan eksponatlar : Lerik Rayon

Tarix diyarşünaslıq muzeyi haqqında // Mədəni Maarif. - 2011. - № 7. - S. 38,39.

**Axundov B.** Böyük şairin xatirəsi : Hüseyn Cavidin ev muzeyi // Ədəbiyyat qəzeti. - 2012. - 29 sentyabr. - № 36. - S. 5-6.

**Araplı Y.** Azərbaycanda muzey quruculuğu və muzeyşünaslığın inkişafı // Mədəni Həyat. - 2013. - № 7. - S. 67-69.

**Aslan Q.** Aşıq Ələsgər muzeyi // Respublika. - 2014. - 23 noyabr. - № 256. - S. 5.

**Azərbaycan Xalq Cümhuriyyətinin** İstiqlal Bəyannaməsinin Azərbaycan və fransız dillərində nüsxələri Milli Azərbaycan Tarixi Muzeyinə təqdim edilmişdir // Azərbaycan. - 2014. - 3 may. - № 91. - S. 3.

**Azərbaycan Prezidenti İlham** Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri : Prezident İlham Əliyev "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olmuşdur // Azərbaycan. - 2014. - 8 aprel. - № 69. - S. 2.

**Azəri L.** İstiqlalımızın bəyanı : Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsinin Azərbaycan və fransız dillərində nüsxələri Milli Azərbaycan Tarixi Muzeyinə təqdim edilmişdir // Mədəniyyət. - 2014. - 9 may. - № 35. - S. 7.

**Babayev T.** Basqal kəlağayı muzeyi // Xalq qəzeti. - 2014. - 2 mart. - № 46. - S. 6.

**Bayramqızı Ə .** Aşıq Ələsgər muzeyi sənət xəzinəsidir // Xalq qəzeti. - 2013. - 22 dekabr. - № 283. - S. 7.

**Bayramqızı Ə.** Milli qürur ünvanı - Bayraq muzeyi // Xalq qəzeti. - 2015. - 11 yanvar. - № 7. - S. 5.

**Bayramlı N.** 87 yaşlı Hüseyn Həsənov şəxsi mənzilində Aşıq Ələsgər üçün muzey yaradıb : Hüseyn Həsənov: Aşıq Ələsgər

bu sənətin zirvəsində dayanır // Yeni Azərbaycan. - 2014. - 9 dekabr. - № 224. - S. 9.

**Bayramov A.** Müqəddəs sənət məbədləri : muzeylər haqqında // Mədəniyyət. - 2011. - 25 may. - № 37. - S. 12.

**Bayramov R.** Maestronun xatirəsinə : Niyazinin mənzil-muzeyinin fəaliyyətə başlamasının 20 ili tamam olur // Mədəniyyət. - 2014. - 19 sentyabr. - № 72. - S. 13.

**Bayramova A.** Musiqi Mədəniyyəti Dövlət Muzeyi : 18 may - Beynəlxalq Muzeylər Günüdür // Mədəni Həyat. - 2013. - may. - № 5. - S. 65-66.

**Bəkirova N.** Eksponatlar dil açanda tarix danişar : "İçərişəhər" tarixi muzeyində də qədim Bakının yaşıdı maddi-mənəvi sərvətlər az deyil // Azərbaycan. - 2015. - 8 fevral. - № 30. - S. 8.

**Ceyhun.** Ordubadın incisi: Qeysəriyyə abidəsi // Mədəniyyət. - 2011. – 10avqust. - № 58. - S. 15.

**Cəfəroğlu Q.** Xaçmaz - muzeylər şəhəri // Xalq qəzeti. - 2013. - 5 oktyabr. - № 220. - S. 3.

**Çingizqızı G.** Dahi Üzeyirin ruhunu yaşadan məkan // Mədəniyyət.az. - 2015. - № 11. - S. 68-71.

**Eyvazova Y.** Açıq səma altında muzeylər abidələrin muzeyləşdirilməsinin mühüm istiqamətlərindən biri kimi // Mədəni həyat. - 2012. - № 2. - S. 80-83.

**Eyvazova Y. M**uzey işi - mədəni quruculuğun mühüm amili // Xalq qəzeti. - 2011. - 17 iyul. - № 154. - S. 6.

**Ədəbiyyat muzeyi 75** illik yubileyinə hazırlaşır // Palitra. - 2015. - 31 iyul. - № 136. - S. 3.

**Əfəndi R.** Azərbaycan mədəniyyət inciləri dünya muzeylərində : Fransa // Füyuzat. - 2013. - № 1. - S. 31-36.

**Əfəndi R.** Azərbaycan mədəniyyət inciləri dünya

muzeylərində : İsveçrə // Füyuzat. - 2013. - № 2. - S. 20-23.

**Əfəndi R.** Azərbaycan mədəniyyət inciləri dünya muzeylərində : Macarıstan // Füyuzat. - 2013. - № 3. - S. 32-37.

**Əfəndi, Rasim.** Azərbaycan mədəniyyət inciləri dünya muzeylərində : Rusiya // Füyuzat. - 2013. - № 4. - S. 56-61.

**Əfəndi R.** Azərbaycan mədəniyyət inciləri dünya muzeylərində : Rusiya // Füyuzat. - 2013. - № 5. - S. 42-49.

**Əfəndi R.** Azərbaycan mədəniyyət inciləri dünya muzeylərində : Türkiyə // Füyuzat. - 2013. - № 6. - S. 32-37.

**Əfəndi R.** Azərbaycan mədəniyyəti dünya muzeylərində : Türkiyə // Füyuzat. - 2014. - № 2. - S. 60-64.

**Əfəndi R.** Azərbaycan mədəniyyət inciləri dünya muzeylərində : Böyük Britaniya // Füyuzat. - 2012. - № 6. - S. 56-63.

**Əhmədova T.** Tarixləşən dünənimiz : muzeylər haqqında // Mədəni həyat. - 2012. - № 6. - S. 54,55.

**Əhmədova Y.** 20 yaşlı muzey : Ağstafa rayon tarix-diyarşünaslıq muzeyi // Mədəni həyat. - 2012. - № 10. - S. 61.

**Əliyeva A.** Maestronun mənzil-muzeyi: 20 il əvvəl və bu gün // Mədəni Həyat . - 2014. - № 10. - S. 11-13.

**Əliyeva İ.** Azərbaycan muzeyləri milli özünəməxsusluğumuzu dünyaya təcəssüm etdirir : 18 may Beynəlxalq Muzeylər Günüdür // Azərbaycan. - 2014. - 18 may. - № 103. - S. 5.

**Əliyeva İ.** Həmişə həyatın qaynarında : Ziyalı qadınlarımız : Zərifə Salahova // Respublika. - 2014. - 6 fevral. - № 25. - S. 7.

**Əlizadə N.** Azərbaycan tarixi muzeyi : milli-mədəni

dəyərlərimizin qoruyucusu və təbliğatçısı kimi // Mədəni Həyat. - 2013. - № 4. - S. 16-18.

**Əmirxanov S.** Azərbaycan muzeyşünaslığının sürətli inkişafı : 1970-1990-cı illər // Mədəni Maarif. - 2011. - **№ 7**. - S. 65-69.

**Əmirxanov S.** Azərbaycan sənətkarlığı nümunələri dünya muzeylərində // Mədəni Həyat. - 2013. - **№ 6**. - S. 56-58.

**Əmirxanov S.** Azərbaycanda muzey quruculuğu // Qobustan. - 2012. - № 1. - S. 66-70.

**Əmirxanov S.** Azərbaycanda muzey quruculuğu 1950-2011-ci illər // Mədəni Maarif. - 2011. - **№ 6**. - S. 70-74.

**Əmirxanov S.** Azərbaycanda 1896-1950-ci illərdə muzey quruculuğunun təşəkkülü və inkişafı // Mədəni Maarif. - 2011. - № 5. - S. 69-75.

**Əmirxanov S.** Ən qiymətli xəzinə // Mədəni Həyat. - 2013. - № 4. - S. 94-95.

**Əsədov İ.** Muzeyimizin dünəni və bu günü // Mədəni Həyat. - 2013. - № 4. - S. 13-14.

**Əzizova N.** Muzeylər : Ornamental sənətin qoruyucusu kimi // Mədəni Maarif. - 2011. - № 3. - S. 52-54.

**Fariz.** Muzey həqiqət axtarışında olanların ünvanı : 18 may Beynəlxalq Muzeylər Günü : Nəriman Nərimanovun xatirə muzeyi // Mədəniyyət. - 2014. - 16 may. - № 37. - S. 12.

**Fərəcov S.** Folklorşünas, epiqrafçı alim : Mir Bagır Mir Heydərzadənin Naxçıvanda muzey işinin təşkilində mühüm xidmətləri olub // Mədəniyyət. - 2015. - 24 iyul. - № 56. - S. 11.

**Fərəcov S.** Görkəmli arxeoloq və muzey təşkilatçısı : Davud Şərifov // Mədəniyyət. - 2014. - 24 dekabr. - № 99. - S. 13.

**Fərəcov S.** Maddi-mənəvi sərvətlərimizin saxlanc yeri : Milli

Azərbaycan Tarix Muzeyi // Mədəniyyət. - 2011. - 5 oktyabr. - № 73. - S. 14.

**Fərəcov S.** Tarixi irsimizin saxlanc yeri : AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi - 95 // Mədəniyyət. - 2015. - 6 noyabr. - № 86. - S. 13.

**Fərəcov S.** Üzeyir Hacıbəylinin ev-muzeyinin 40 illik yubileyi qeyd olundu // Mədəniyyət. - 2015. - 23 dekabr. - № 100. - S. 8.

**Fərəcova M.** Muzey - arxeoloji kompleks : 2011-ci il Turizm ilidir // Respublika. - 2011. - 5 noyabr. - № 240. - S. 7.

**Fəridə Ş.** İstiqlal Muzeyi: müstəqilliyimizin yaşıdı // Respublika. - 2014. - № 267.

**Heydər Əliyev Mərkəzində** Heydər Əliyev Muzeyi yaradılmışdır : Prezident İlham Əliyev Muzey ilə və Mərkəzdə görülmüş bir sıra işlərlə tanış olmuşdur // Azərbaycan. - 2013. - 10 may. - № 100. - S. 3.

**"Heydər Əliyev və** Azərbaycanın neft-kimya sənayesi" muzeyi yaradılmışdır / AzərTAc // Azərbaycan. - 2011. - 29 yanvar. - № 21. - S. 2.

**Heydərova A.** Dahi bəstəkarın ocağına həsr olunmuş 30 il : Sərdar Fərəcov: "Üzeyir Hacıbəylinin ev-muzeyi mənə hərtərəfli dəstək verdi. Bu ocağa çox minnətdaram" // Mədəniyyət. - 2014. - 3 oktyabr. - № 76. - S. 13.

**Heydərova A.** Üzeyir yaradıcılığını yaşadan muzey : 18 may Beynəlxalq Muzeylər Günüdür // Respublika. - 2013. - 18 may. - № 106. - S. 7.

**Həsənqızı E.** Beynəlxalq forum : "Muzey icmaları və dövlət qurumları arasında qeyri-maddi mədəni irsin mühafizəsi və inkişafı üzrə əməkdaşlıq" başlığı mövzunda // Mədəni həyat. - 2012. - № 10. - S. 4-5.

**Həsənli S.** Abşeron Rayon Tarix-Diyarşünaslıq Muzeyi: dünən və bu gün // Respublika. - 2014. - 16 avqust. - № 175. - S. 4.

**Hidayətoğlu Y.** Əzəmətli sənət məbədi - Luvr Muzeyi // Mədəniyyət.az. - 2015. - № 9. - S. 102-105.

**Hüseynoğlu S.** Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində // Ədəbiyyat qəzeti. - 2012. - 12 may. - № 17. - S. 3.

**Xaçınçaylı Q.** Qarabağ atlarının tarixinə dair muzey inşa edilir // Həftə içi. - 2015. - 17 dekabr. - № 193/231. - S. 7.

**Xalq yazıçısı İlyas** Əfəndiyevin virtual muzeyinin təqdimatı oldu // Ədəbiyyat qəzeti. - 2011. - 7 oktyabr. - № 37. - S. 2.

**Xəlilzadə F.** Xəzinələr xəzinəsi : 18 May Beynəlxalq Muzeylər Günüdür // Azərbaycan. - 2013. - 18 may. - № 107. - S. 7.

**Xəlilzadə F.** Qədimliklə müasirliyin vəhdəti : Bakının Qala kəndində açıq səma altında yaradıln etnoqrafik muzey // Azərbaycan. - 2012. - 18 yanvar. - № 12. - S. 6.
**Xəlilzadə F.** Milli-mənəvi sərvətlər : 18 may Beynəlxalq Muzeylər günüdür // Azərbaycan. - 2011. - 18 may. - № 106. - S. 11.

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq** Qoruğu ərazisində muzey ekspozisiyalarının yenidən qurulması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (16 sentyabr 2013-cü il) // Azərbaycan. - 2013. - 17 sentyabr. - № 204. - S. 1.

**İxtiyarqızı N.** Muzeylərdə qalan tarix : Hacı Zeynalabdinin muzeyə çevrilmiş malikanəsində 300 minədək maddi-mədəniyyət nümunəsi saxlanılır // Həftə içi. - 2012. - 13-15 oktyabr. - № 034. - S. 11.

**İlyasoğlu R.** Cəbrayıl tarix-diyarşünaslıq muzeyində //

Respublika. - 2014. - 3 aprel. - № 65. - S. 12.

**İsayeva R.** Zəngin xalça sənəti irsimizin qorunduğu məkan : Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi // Mədəniyyət. - 2012. - 10 fevral. - № 9. - S. 15.

**İsgəndərova T.** Azərbaycan Milli İncəsənət Muzeyi - 80 // Mədəniyyət. - 2016. - 6 aprel. - № 26. - S. 12.

**İsmayılov R.** Azərbaycan və Gürcüstan mədəniyyətinə xidmət edən muzey // Kaspi. - 2014. - 16 avqust. - № 136. - S. 16.

**Kazımi G.** Mədəni dəyərlərimizin qorunması və təbliğində Azərbaycan Milli İncəsənət Muzeyinin rolu // Mədəni Həyat . - 2014. - № 4. - S. 50-52.

**Kazımlı K.** Müqəddəs məbədgah : Molla Pənah Vaqif və Molla Vəli Vidadinin xatirə muzeyi // Mədəni həyat. - 2012. - № 11. - S. 59.

**Keçmişə boylanarkən** : XIX əsrin sonu XX əsrin əvvəli Azərbaycanda yaranan muzeylər // Mədəni Maarif. - 2011. - № 5. - S. 1.

**Kərimov Y.** Aviasiya muzeyləri : 18 may Beynəlxalq Muzeylər Günüdür // Xalq qəzeti. - 2011. - 18 may. - № 106. - S. 10.

**Qasımova E.** Gələcəyə ünvanlanmış tarix // Füyuzat. - 2013. - № 3. - S. 58-63.

**Qasımova E.** Muzey təzadları // Mədəni Maarif. - 2011. - № 2. - S. 37,38.

**Qasımova E.** Gömrük Tarixi Muzeyindən incilər : Yeddi gözəl // Füyuzat. – 2013. - № 5. – S.56-61.

**Qazızadə N.** Beynəlxalq Muzeylər Günü İstiqlal Muzeyinin ekspozisiyasında : 18 may Beynəlxalq Muzeylər Günü //

Mədəniyyət. - 2014. - 16 may. - № 37. - S. 10.

**Qazızadə N.** İstiqlal Muzeyi : ilk dövlət muzeyimizin 20 yaşlı varisi // Mədəniyyət. - 2011. - 7 yanvar. - № 1. - S. 12.

**Qız qalasının bərpa** və konservasiyasının sürətləndirilməsi və muzey ekspozisiyasının yenidən qurulması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (16 aprel 2013-cü il) // Azərbaycan. - 2013. - 17 aprel. - № 80. - S. 5.

**Quliyev Ə.** Gözəl sənətin zəngin məkanı : Azərbaycan Milli İncəsənət Muzeyi - 80 // Mədəniyyət. - 2016. - 11 mart. - № 20. - S. 11.

**Lalə.** Qorunan, təbliğ olunan muzey sərvətlərimiz : Mədəniyyət və Turizm Nazirliyi - 10 il // Mədəniyyət. - 2016. - 29 yanvar. - № 7/8. - S. 11.

**Mahmudqızı P.** Cəlil Məmmədquluzadə həmişə müasir və aktualdır : [Cəlil Məmmədquluzadənin ev muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Pərixanım Mahmudqızı ilə müsahibə / söhbətləşdi X. Günəş] // Palitra. - 2014. - 26 iyun. - № 112. - S. 13.
**Mehparə.** 20 Yanvar: qan yaddaşımız muzey ekspozisiyalarında // Mədəniyyət. - 2011. - 19 yanvar. - № 4. - S. 9.

**Mehparə.** Naxçıvan Xan Sarayı : tarixi olaylara şahidlik etmiş saray bu gün muzey kimi fəaliyyət göstərir / Mehparə // Mədəniyyət. - 2012. - 27 yanvar. - № 6. - S. 13.

**Memorial Soyqırımı Muzeyi** // Mədəniyyət. - 2014. - 26 fevral. - № 15. - S. 16.

**Məcidova F.** Alman İcmasının Tarixi Muzeyi // Mədəni Həyat . - 2014. - № 10. - S. 4.

**Məhərrəmova T.** Bəyin evindən reportaj : masanın üstünə

Üzeyir bəyin yarımçıq qalan "Azərbaycan" əsərinin partiturası qoyulub // Kaspi. - 2012. - 19 sentyabr. - № 386. - S. 11.

**Məhərrəmova T.** Mədəni irsin saxlanc yeri : Dövlət Teatr Muzeyində 130 min material qorunub saxlanılır // Kaspi. - 2011. - 24 may. - № 90. - S.9.

**Məlikova Z.** Sirri açılmamış eksponatlar // Mədəni Həyat. - 2013. - № 3. - S. 54-55.

**Məmmədov M.** Xan sarayı çoxəsrlik dövlətçilik ənənələrimizin mühüm yadigarıdır : Naxçıvanın qədim abidələrinin tarixi // Azərbaycan. - 2011. - 12 mart. - № 56. - S. 7.

**Mən həmişə minnətdaram** Sizə... : Hüseyn Cavidin qızı Turan xanımla Heydər Əliyevin söhbəti // Ədəbiyyat qəzeti. - 2011. - 9 dekabr. - № 45. - S. 1.

**Mənsimov E.** Dünyanın ilk və ən böyük Miniatür Kitab Muzeyi Azərbaycandadır // Azərbaycan. - 2016. - 4 fevral. - № 25. - S. 7.

**Milli Aviasiya Akademiyasında** Heydər Əliyev Muzeyi açılmışdır // Ədəbiyyat qəzeti. - 2013. - 9 may. - № 17. - S. 7.

**Milli Azərbaycan Tarixi** Muzeyinə "Molla Nəsrəddin" jurnalının nadir nömrələri hədiyyə olunub // Ədəbiyyat qəzeti. - 2013. - 5 aprel. - № 12. - S. 8.

**Miriyev A.** Bəhruz Kəngərli Muzeyi yeni eksponatlarla zənginləşib // Palitra. - 2014. - 29 yanvar. - № 15. - S. 11.

**Miriyev A.** Cavid irsini təbliğ edən muzey // Palitra. - 2013. - 16 noyabr. - № 210. - S. 11.

**Miriyev A.** Qədim Şabran tarixini yaşadan muzey : Tarix-Diyarşünaslıq Muzeyi // Palitra. - 2013. - 9 oktyabr. - № 185. - S. 11.

**Muzeylər maddi** və mənəvi irsi qoruyan məbəddir : 18 may Beynəlxalq Muzeylər Günüdür // Azərbaycan : qəzet. - 2015. - 17 may. - № 104. - S. 10.

**Mükərrəmoğlu M.** Azərbaycan xalqı öz mədəniyyəti ilə dünyanı fəth edir // Xalq qəzeti. - 2015. - 9 avqust. - № 170. - S. 7.

**Mükərrəmoğlu M.** "Xalçalarda Nizami dünyası" // Xalq qəzeti. - 2011. - 27 dekabr. - № 287. - S. 11.

**Mürsəlov N.** Hüseyn Cavidin ev muzeyinin elmi-tədqiqat fəaliyyəti // Mədəniyyət.az. - 2015. - № 10. - S. 90-93.

**Nərimanoğlu M.** Dumanlı dövrün aydın fikirli ədibi : Məmməd Səid Ordubadinin ev muzeyinin yaradılmasından 35 il ötür // Azərbaycan. - 2014. - 2 noyabr. - № 239. - S. 6.

**Nərimanoğlu M.** Maddi-mənəvi xəzinə: əsrlərin yadigarları : bu sərvətlər Qəbələ tarix-diyarşünaslıq muzeyində qorunur // Azərbaycan. - 2014. - 15 noyabr. - № 249. - S. 6.

**Nərimanoğlu M.** Səma şairinin muzey həyatı : Hüseyn Cavid haqqında // Azərbaycan. - 2011. - 23 oktyabr. - № 235. - S. 6.

**Nərimanoğlu M.** Tarixə dönmüş incilər : 18 may Beynəlxalq Muzeylər Günüdür // Azərbaycan : qəzet. - 2016. - 18 may. - № 106. - S. 7.

**Nəsrəddinov N.** Səid Ünsizadə adına Azərbaycan Mətbuat Muzeyi // Kaspi. - 2014. - 15 may. - № 82. - S. 15.

**Orucoglu Z.** Dünənimizi tarixə çevirən məkanlar // Mədəniyyət.az. - 2015. - № 5. - S. 48-57.

**Pirimova N.** Teatrı tarixləşdirən məbəd - Dövlət Teatr Muzeyi : Azərbaycan Dövlət Teatrı - 140 // Kaspi. - 2013. - 16-18 mart. - № 49. - S. 11.

**Prezident İlham Əliyev** Qala qəsəbəsindəki Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin ərazisində aparılan tikinti-quruculuq işləri ilə tanış olmuş, Əntiq Əşyalar Muzeyinin açılışında iştirak etmişdir // Azərbaycan. - 2011. - 8 sentyabr. - № 196. - S. 1.

**Rəhimov N.** Keşmişə ehtiramla - gələcəyə inamla : 18 may Beynəlxalq Muzeylər Günü : Naxçıvan Dövlət Tarix Muzeyi // Mədəniyyət. - 2014. - 16 may. - № 37. - S. 10.

**Rəhimova N.** Mühüm ünsiyyət vasitəsi : Azərbaycan Milli İncəsənət Muzeyi // Mədəni Həyat . - 2014. - № 7. - S. 60-62.

**Rzayeva R.** Bayrağın Şirvanşahlara aid olması təsdiqlənib : [Şirvanşahlar Sarayı Kompleksinin Dövlət Tarix-Memarlıq qoruq-muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Rəna Rzayeva ilə müsahibə / söhbətləşdi X. Günəş] // Palitra. - 2014. - 31 iyul. - № 134. - S. 13.

**Sadıqova Ü.** Azərbaycanda muzey turizmi və onun inkişaf problemləri : 18 may - Beynəlxalq Muzeylər Günüdür // Mədəni həyat. - 2012. - № 5. - S. 7-9.

**Sən yaşa, dünya!.** : Xalq şairi Səməd Vurğunun ev muzeyi // Ədəbiyyat qəzeti. - 2014. - 7 mart. - № 9. - S. 1.

**Soltanzadə G.** Avropada ilin muzeyi : Qobustan Milli Tarix-Bədii Qoruğu bu mükafata layiq görülmüşdür // Mədəni Həyat. - 2013. - № 6. - S. 40-42.

**Şəmsi F.** Azərbaycanda ilk dövlət muzeyi : İstiqlal Muzeyi // Mədəniyyət. - 2013. - 4 dekabr. - № 87. - S. 12.

**Şəmsi F.** Biz muzey olaraq Azərbaycanın həmyaşıdıyıq : [Azərbaycan İstiqlal Muzeyinin direktoru Fəridə Şəmsi ilə müsahibə / yazdı X. Günəş] // Palitra. - 2014. - 3 iyun. - № 96. - S. 13.

**Şiriyeva Z.** Muzey mühiti gənclərlə təlim-tərbiyə prosesinin mühüm komponenti kimi // Azərbaycan məktəbi. - 2015. - №

3. - S. 79-83. - Biblioqr. - S.83.

**Şiriyeva Z.** Muzey mühiti gənclərlə təlim-tərbiyə prosesinin mühüm komponenti kimi // Azərbaycan məktəbi. - 2015. - № 3. - S. 79-83. - Biblioqr. - S.83.

**Tağıyev B.** Tarix diyarşünaslıq muzeyi zənginləşir // Respublika. - 2011. - 21 aprel. - № 81. - S. 6.

**Tağıyeva R.** 18 may Beynəlxalq Muzeylər Günüdur // Mədəniyyət. - 2011. - 18 may. - № 35. - S. 12.

**Vahid T.** Muzey içində muzey : qobustan Milli Tarix-bədii Qoruğunda insa edilmiş yeni muzey // Mədəniyyət. - 2012. - 20 mart. - № 1/XÜS. BUR. - S. 4.

**Vəlixanlı N.** Milli Azərbaycan Tarixi Muzeyi 95 // Respublika. - 2015. - 21 oktyabr. - № 229. - S. 7.

**Vəlixanlı N.** Tarixi yaddaşımızın, mədəni irsimizin qoruyucusu : Azərbaycan Milli Elmlər Akademiyasının 70 illiyi qarşısında // Respublika. - 2014. - 20 iyun. - № 129. - S. 4.

**Vəliyev Y.** Möcüzələr dünyası // Mədəni Həyat. - 2013. - № 7. - S. 33-37.

**Vəliyeva İ.** Ordubadi Azərbaycan ədəbiyyatının təməl daşlarından biridir : [Məmməd Səid Ordubadinin xatirə muzeyinin elmi işçisi İradə Vəliyeva ilə müsahibə / söhbətləşdi X. Günəş] // Palitra. - 2014. - 11 iyul. - № 122. - S. 13.

**Zərbəliyev C.** Qəbələnin zəngin tarixini yaşadan muzey : Qəbələ tarixi-diyarşünaslıq muzeyi haqqında // Mədəniyyət. - 2012. - 30 may. - № 38. - S. 12.

**Zümrüd.** 18 may Beynəlxalq Muzeylər Günüdür // Səs. - 2016. - 18 may. - № 88. - S. 11.

# Dünənimizi sabaha bağlayan "körpü"lər - muzeylər
## (metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 4
Çapa imzalanmışdır:08.05.2017
Tirajı:100